**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**Fakültə: İqtisadiyyat və menecment departamenti**

**Bölmə: İqtisadiyyat və idarəetmə**

**İxtisas: Turizm işinin təşkili**

**Müdafiəyə buraxılır:**
**"__" "____" 2025-ci il**
**Bölmə rəhbəri:___________________**

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

# B U R A X I L I Ş İ Ş İ

**MÖVZU:** ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**QRUP:** TT1Q-20

**TƏLƏBƏ:** Məlikzadə Elbir Elmi oğlu

**ELMİ RƏHBƏR: dos. X.Cavadzadə**

**MÜNDƏRİCAT**

**Giriş...........................................................................................................3**

**Xülasə........................................................................................................4**

**Şəki-Zaqatala İqtisadi Rayonunda Turizmin İnkişaf Perspektivləri**

**I Fəsil. Şəki-Zaqatala iqtisadi rayonunda turizmin inkişaf potensialı**

1.1. Şəki-Zaqatala iqtisadi rayonunun iqtisadi xüsusiyyətləri..........................................7

1.2. Regionun turizm obyektləri və tarixilik......................................................................13

1.3. Regionun turizm inkişafında iqlim xüsusiyyətləri.......................................................19

**II FƏSİL: RAYONDA TURİZMİN MÖVCUD VƏZİYYƏTİ VƏ PROBLEMLƏRİ**

2.1. Regionda turizmin inkişafinda rol oynayan resurslar(otel, nəqliyyat, yollar və s.)...........................................................................................22

2.2. Regionda turizmin mövcud növləri..........................................................25

2.3. İqtisadi rayonda kadr təminatı və xidmət xüsusiyyətləri.......................................28

**III FƏSİL: ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ**

3.1. İqtisadi rayonda turizmin inkişafı üçün dövlət siyasəti və strategiyalar.....................35

3.2. Region turizminin beynəlxalq çərçivədə inkişaf xüsusiyyətləri...............................36

3.3. Regionun iqtisadi inkişafının təmin olunması və təkliflər......................................39

**Nəticə.........................................................................................................42**

**Ədəbiyyat...................................................................................................45**

## GİRİŞ

**Mövzunun aktuallığı.** Şəki-Zaqatala iqtisadi regionu ölkəmizin turizm potensialının tənzimlənməsində mühüm mövqeye sahib olan iqtisadi regiondur. Regionun təbii gözəlliklərə sahib olması, florası, faunası, termal bulaqları, çayları, dağlıq ərazisi, sıx meşəliklərlə əhatə olunması turizmin inkişafına əlavə xərclər qoymadan inkişaf etmişdir. Region dünyada və ölkəmizdə turizm bölgəsi olaraq tanındığından buraya kütləvi şəkildə yerli və əcnəbi turistlərin axını müşahidə edilir.

Ərazinin infrastruktur xüsusiyyətləri burada turizmin bir çox növlərinin inkişaf etdirilməsinə yardımçı olur. Təbiətinin zənginliyi, il ərzində çoxlu yağışların yağması havanın təmiz olmasına səbəb olur.

Şəki-Zaqatala iqtisadi regionu relyef xüsusiyyətləri, iqlim zənginliyi ilə diqqət cəlb edən təbiətə sahibdir. Burada ekoloji, dağ turizmin inkişafı üçün mümükün şərait mövcududr. İqlim xüsusiyyətləri, relyef iqtisadi gəlirin artmasında mühüm faktordur. Şəki-Zaqatala iqtisadi regionun müsbət amilləri ilə yanaşı bir sıra mənfi amilləri turizmin inkişafında mühüm rol oynayır.

- ✓ Regionda turizm yollarının təmir vəziyyəti,
- ✓ Ekologiyanın çirklənməsinə qarşı nəqliyyat sisteminin olmaması,
- ✓ Kadrların turizm sahəsi üzrə az bilikli olması.

Turizmin inkişafı istiqamətində olan bu maneələrin aradan qaldırılmasında dövlət siyasətinin və strategiyasının mühüm rolu qiymətləndirilməlidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişafı xüsusiyyətlərinini ortaya çıxarmaq, kadrların hazırlıq səviyyəsinin yüksəldilməsi üçün təlimlərin təşkil olunması, onların təlimlərə yönləndirilməsinə istiqamətlənmişdir. Işin məzmunun əsasını bölgədə turizmin inkişaf tendensiyaları, turistlərin bölgələrə ccəlb edilməsi, inkişafda dövlət dəstəyinin göstərilməsi əsas məqsəd hesab edilməlidir. Mövzuda məqsədə çatmaq üçün bir sıra məsələlər işıqlandırılmışdır.

**Tədqiqatın obyekti:** Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişaf prespektivləri, turizmin növləri, nəqliyyat vasitələri, otel və mehmanxana təsərrüfatı.

**Tədqiqatın predmeti:** Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişafının araşdırılması yolları, inkişaf istiqamətləri.

**İnformasiya bazası:** Şəki-Zaqatala iqtisadi regionunda turizminin inkişafının təmin olunmasında dövlət strategiya və qanunlar, elmi metodiki ədəbiyyatlar, praktiki müşahidələr, internet məlumatlarından istifadə edilmişdir.

**Buraxılış işinin strukturu:** Tədqiqat işi, giriş, xülasə, 3 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin qruluşu I fəsil "Şəki-Zaqatala iqtisadi rayonunda turizmin inkişaf potensialı", II fəsil "Rayonda turizmin mövcud vəziyyəti və problemləri", III fəsil "Şəki-Zaqatala iqtisadi rayonunda turizmin inkişaf perspektivləri" haqqında danışılır.

Girişdə buraxılış işinin aktuallığı əsaslandırılmış, onun obyekti, predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası öz əksini tapmışdır.

Buraxılış işinin sonunda tədqiqatın aparılması prossesində yaranan nəticənin qısa məzmunu və istifadə edilmiş ədəbiyyatların siyahısı əks edilmişdi

## XÜLASƏ

Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişaf perspektivləri bir çox istiqamətlərdə həyata keçirilir. Sektorun inkişafında bir çox tədbirlər həyata keçirilə bilər. Ərazinin geniş flora və faunasının olması turizm potensialının yüksək olmasından irəli gəlir. Müxtəlif iqlim şəraitinin mövcud olması turizmin bir çox qollarının ərazidə inkişaf etdirilməsinə kömək edir.

Dağlıq region dağ turizminin inkişafına, təmiz hava şəraiti ekoloji turizmin və sağlamlıq turizinin inkişafına təkan verə bilir. Turizmin bu ku kimi bir çox qollarının regionda inkişafı ərazinin potensial inkişafının təmin olunmasına, xarici və yerli turistlərin cəlb edilməsinə təkan verir. İqtisadi regiona dövlət dəstəyinin verilməsi, bir sıra mühüm otellərinin tikilməsi və yenidən qurulması istiqamətində atılmış addımlar bu qəbildəndir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların dağlıq relyefdə yerləşməsi ərazidə idman növləri üzrə fəaliyyətlərin həyata keçirilməsinə səbəb olur. Ərazinin gözəl təbiət xüsusiyyətlərinin mövcud olması burada müxtəlif otellərin, fərdi evlərin tikilməsinə və istifadəyə verilməsinə kömək edir.

Şəki-Zaqatala iqtisadi regionunda mövcud infrastruktur keyfiyyətlərinin yüksək olması nəqliyyat sisteminin qurulması istiqamətində atılan addımlar ərazi turizminin inkişafına, turistlərin buraya səyahətlərinin rahat şəkildə təşkil olunmasına ən əsası ekologiyamızın qorunması istiqamətində mühüm addımların atılmasına kömək edir.

Otel və mehmanxana təsərrüfatının iş fəaliyyətinin tənzimlənməsində kadrların iş qüvvəsinin artırılması, işçilərin bilik səviyyəsinin yüksəldilməsi istiqamətində təlimlərin təşkili, işçilərin təhsilləndirilməsi, mühüm sahələrdə yardımların alınması vacib amildir. İşin dövlət turizm standartlarına uyğun şəkildə təşkil olunması işin keyfiyyət səviyyəsinin artırılmasına istiqamətlənmişdir.

İqtisadi regionda fəaliyyət göstərən turizm sənayesinin inkişafında struktur rəhbərlərinin qanunauyğun fəaliyyətinin təşkil edilməsi mühüm amildir. Turizm iqtisadi regionun əsas sənaye sahəsi hesab edildiyindən sahənin inkişafının təmin edilməsində mühüm addımların atılması, insanların iş sahələrinin inkişafına təkan verilməsi çox önəmlidir.

## ABSTRACT

The development prospects of tourism in the Shaki-Zagatala economic region are being implemented in various directions. Many measures can be taken to promote the development of the sector. The area's rich flora and fauna indicate a high tourism potential. The presence of diverse climatic conditions supports the development of many branches of tourism in the region.

The mountainous nature of the region contributes to the development of mountain tourism, while the clean air conditions promote the growth of ecological and health tourism. The development of these and other branches of tourism in the region plays a key role in ensuring the area's potential growth and attracting both local and foreign tourists. Government support for the economic region, including the construction and renovation of several important hotels, is part of this initiative. The mountainous terrain of the districts within the Shaki-Zagatala economic region enables the practice of various sports activities. The area's beautiful natural features also facilitate the construction and use of various hotels and private accommodations.

The high quality of the existing infrastructure in the Shaki-Zagatala economic region, along with steps taken toward building a modern transportation system, contributes to the development of tourism, allows for the convenient organization of travel for tourists, and most importantly, supports significant actions for environmental protection.

In regulating the operations of the hotel and hospitality industry, it is essential to increase the workforce, organize training to improve employees' knowledge, educate staff, and receive

support in key areas. Organizing the work in accordance with national tourism standards is aimed at improving the quality of services.

Organizing the lawful activities of management structures in the development of the tourism industry operating in the economic region is a crucial factor. Since tourism is considered one of the main industries of the economic region, taking significant steps to ensure its development and encouraging employment opportunities is of great importance.

# I Fəsil. Şəki-Zaqatala iqtisadi rayonunda turizmin inkişaf potensialı

## 1.1.Şəki-Zaqatala iqtisadi rayonunun iqtisadi xüsusiyyətləri

Azərbaycanın Şimal-şərqində yerləşən, sosial və iqdisadi xüsusiyyətləri, flora-faunası ilə seçilən Şəki-Zaqatala iqtisadi rayonu turizmin inkişaf potensialına sahibdir. İqtisadi zonanın yerləşdiyi mövqe əlverişli relyefə sahib olduğundan turizmin inkişafında maneələrlə az rast gəlinir. Rayonun iqtisadi inkişafının əsasını kənd təsərrüfatı, sənaye, turizm təşkil edir.

Şəki-Zaqatala iqtisadi rayonunda təbii imkanların isytifadə edilməsi və düzgün dəyərləndirməklə sağlamlıq turizmi sahəsində müsbət nəticə əldə etmək, böyük uğurlar qazanmaq mümkündür. Regionda turizmin sahələrinin inkişaf etdirilməsi üçün dövlət və özəl özəl turizm sektorun birgə əməkdaşlığı inkişafı daha da sürətləndirə bilər. Şəki-Zaqatala iqtisadi regionunda yerləşən rayonlara baxaq:

**Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonlar**

***Cədvəl 1.1***

| Rayonlar | Yerləşdiyi istiqamət |
|---|---|
| **Balakən** | Şimal-qərb |
| **Qax** | Şimal-qərb |
| **Qəbələ** | Şimal-qərb |
| **Oğuz** | Şimal-qərb |
| **Zaqatala** | Şimal-qərb |
| **Şəki** | Şimal-qərb |

Şəki-Zaqatala iqtisadi regionu Azərbaycanın ən gözəl və turizm baxımından cəlbedici iqtisadi rayonları özündə birləşdirir. Regionda yalnız tarixi və mədəni irsi turizmi deyil, həm də sağlamlıq turizmi üçün əlverişli şəraiti ilə seçilir. Ərazidə yerləşən mövcud mineral sular, müalicəvi sanatoriyalar və təmiz dağ havası, geniş təbiət, bulaqlar, çaylar sağlamlıq turizminin inkişafında böyük töhfələr verir. Turizmin inkişafında bir çox obyeklər fəaliyyətdə olduğundan regionda turizmin bir çox növlərini izləyə bilərik.

Şəki-Zaqatala iqtisadi rayonu Azərbaycanın şimal-qərb hissəsində yerləşir və

özünəməxsus təbii-coğrafi, iqtisadi və sosial xüsusiyyətləri ilə seçilir. Bu rayonun iqtisadiyyatını formalaşdıran əsas sahələr kənd təsərrüfatı, sənaye, turizm və ticarətdir. Turizmin regionda inkişaf etməsində əsas məqam isə ərazinin relyef və iqlim olaraq inkişaf imkanlarını dəstəkləməsidir. Şəki-Zaqatala respublikamızın mühim inkişaf zonasına daxil edilən turizm zonasıdır.

Şəki-Zaqatala iqtisadi rayonunun turizm sahəsi üzrə inkişafını dəstəkləyən sahələrinə nəzər salaq:

- ✓ Tarixi və mədəniyyətinin genişliyi regionda turistlərin diqqətini cəlb edir. Burada tarixi abidələr, kilsələr (Alban kilsələri), məbədlər(Qəbələ məbədləri), Şəki xan sarayı mövcuddur. Ərazinin qədim tarixə sahib olması, tarixin izlərini daşıması ekuskursiyaların təşkil olunmasında yardımçı olur. Ərazi turizm zonası olmaqla yanaşı ölkəmizin tarixinin yaddaşlarda qalması, tanınması və ən əsası qorunması üçün mühüüm mənbədir.
- ✓ Dağ turizmi və ekoloji turizm regionun relyefinin əlverişli olmasının göstəricisidir. Region dağlıq zonanı əhatə etdiyindən burada sıx meşələr, dağlıq ərazilər mövcuddur. Yaşıllıq ərazinin genişliyi ekologiyasının təmiz olmasına, mütəmadi yağış yağması havaların sərin keşməsinə səbəb olur. Regionun Qafqaz dağlarının ətəyində yerləşməsi, flora-faunası turistlərin diqqət mərhəzində olduğundan turizmin inkişafına mühüm dəstək verir.

Şəki-Zaqatala iqtisadi rayonu Azərbaycanın ən zəngin təbiətə və biomüxtəlifliyə malik bölgələrindən biridir. Dağlıq əraziləri, sıx meşələri, təmiz çayları və unikal flora və faunası ekoturizmin inkişafı üçün böyük imkanlar yaradır. Bu sahənin inkişafı regionun iqtisadi, ekoloji və sosial tərəqqisinə töhfə verə bilər. Ekoloji turizmin inkişafına təsir göstərən səbəblərə nəzər salaq.

1. Təbiətinin zənginliyi və müxtəlifliyi turizmin inkişafına təsir göstərən əsas amillərdəndir.

- ✓ Qəbələ, Oğuz, Şəki, Zaqatala, Qax, Balakən rayonları təbii ehtiyatlarla zəngindir.
- ✓ İlisu dövlət təbiət qoruğu, Zaqatala dövlət təbiət qoruğu, Qax dövlət təbiət yasaqlığı iqtisadi rayonun ərazisində yerləşməklə burada müxtəlif heyvan və

bitki növləri qorunur. Həmçinin ərazidə bir sıra heyvanların ovlanmasına qadağa qoyulmuşdur. Dövlət nəzarətinin səbəbi ərazidə nəsli kəsilmək təhlükəsi olan heyvanların və bitkilərin qorunmasıdır.

- ✓ Yuxarı Baş Dövlət Tarix-Memarlıq Qoruğu və Şəki Xan Sarayı turistlər üçün maraqlı yerlərdir.

2. Ekoloji turizmin sahələri və həmin sahələrin yaratmış olduğu imkanlar-
   - ✓ Dağ turizmi – iqtisadi rayonun dağlıq ərazidə yerləşməsi, dağların isti aylarda sıx meşə örtüyüylə örtülməsi, soyuq aylarda qarla örtülməsi.
   - ✓ Meşə turları – dalıq və düzən ərazilərin sıx meşələrin əhatəsində olması turistlərə təbiətlə ünsiyyətdə olmaq imkanı yaradır.
   - ✓ Çay və göl turizmi – Kiş çayı, Alazan-Əyriçay, Katex çayı, Talaçay, Mazımçay, Balakənçay və digər su hövzələri ekoloji turlarda turistlərin istirahəti və səyahəti üçün istifadə oluna bilər.
   - ✓ Kənd turizmi – iqtisadi rayonun ərazisində yerləşən kəndlər, əsasən turizmin daha qaynar nöqtələrinin yaxın olduğu kəndlərdə yerləşən evlərdə qalmaq, kənd həyatı ilə tanış olmaq mümküdür. Bu kənddə yaşayan insanların maaddi rifahının yaxşılaşdırılmasına, kənddə sənayenin inkişafına səbəb ola bilər.
3. Ekoloji turizmin iqtisadi səmərələləri
   - ✓ Rayonlarda iş sahələrinin açılması (bələdçilər, fermerlər, xidmət sektoru və s.).
   - ✓ Rayon əhalisinin maaddi gəlirlərinin çoxalması və sosial rifahın yaxşılaşması.
   - ✓ Milli və xarici turistlərin cəlb olunması, əraziyə marağın artması nəticəsində maaddiyatın artması.
   - ✓ Regiona turistlərin gəlişinin çoxalması ilə yerli kənd təsərrüfatı məhsullarına və turistik xidmətlərə tələbatın artması.
4. Ekoloji turizmin ekoloji keyfiyyətləri-
   - ✓ Təbiətin  mühafizəsi və biomüxtəlifliyin qorunmasına yardımçı olur.
   - ✓ Əhalini və turistləri ekologiyanın qorunması, zərərli əşyalaraın və tullantıların təbiətə atılmaması, təbiətin flora və faunasına zərər vurulmaması haqqında maarifləndirici məlumatlar çatdırılır.

- ✓ təbii sərvətlərin davamlı istifadəsi və qorunması üçün dayanıqlı turizm modeli yaradılaraq, sistemli nəzarət və istifadəsi təmin edilir.

Şəki- Zaqatala iqtisadi rayonunda turizmin potensialının yüksəldilməsinin inkişafı üçün bəzi tövsiyələr vermək mümkündür

- ✓ Regionun turizm inkişafında stratrukturunun yaxşılaşdırılması, yolların təmiri, ekoloji düşərgələrin yaradılması, məlumat mərkəzləri kimi inkişaf etdirici tədbirlər görülməlidir.
- ✓ İqtisadi rayona səyahət etmək üçün ekoloji turizm nəqliyyat vasitələrindən istifadə üçün nəqliyyat xətləri yaradılması və informasiya texnologiyaları vasitəsilə rəqəmsal xəritələri hazırlanmalıdır.
- ✓ Yerli sakinlərin ekoturizmə cəlb olunması,turizmin regionda genişləndirilməsi və inkişafına dəstək verilməsi üçün maarifləndirilməlidir.
- ✓ İqtisadi rayonun ərazisində ekoloji turizm inkişafı üçün layihələrin hazırlanmasına dövlət dəstəyi və xarici maaliyyə cəlb edilməsi.

Bu addımlar Şəki-Zaqatala iqtisadi rayonunun ekoturizm potensialını reallaşdırmağa və bölgənin iqtisadi inkişafına müsbət təsir göstərməyə kömək edə bilər. Ekoloji turizmin inkişafına təsir edə biləcək digər səbəblərə nəzər salaq.

- ✓ Sağlamlıq turizmi regionda əlverişli şəraitin olması, havasının təmizliyi, mineral bulaqlar, həmçinin sanatoriyaların olması ilə daha da inkişaf edir. regionun füsunkar təbiəti sağlamlıq turizminin inkişaf etməsinə və tanınmasına imkan yaradır. Regionun sağlam turizminin mərkəzinə çevirmək mümkündür. Burada füsunkar təbiətin mövcudluğu ərazinin təmiz havası ekoloji təmizliyin mövcudluğu insanların sağlamlığı üçün faydalı hesab edilə bilər.

Sağlamlıq turizminin inkişaf etdirilməsi iqtisadi canlanmaya səbəb ola bilər. İqtisadi canlanmaya səbəb olacaq amillərə nəzər salaq.

- ✓ Turizmin inkişafı üçün otellər, sanatoriya və sağlamlıq mərkəzlərinin yaradaılması, mövcud yerlərin yenilənməsi və yenidən qurulması.
- ✓ Təbbi qida məhsulları, nəqliyyat vasitələrindən istifadə edilməsi. Regionun əlverişli şəraiti burada heyvandarlıq, sənaye, əkinçilik və s. sahələrin inkişafına səbəb olmuşdur.

Regionun əlverişli iqtisadi relyef quruluşuna sahib olması burada turizm sahələrinin, müxtəlif bizneslərin yaranmasına və inkişafında müsbət keyfiyyət verə bilər.

2. Regionda kiçik, orta bizneslərin yaradılması, inkişafı

- ✓ Rayon sakinlərinin xüsusi mülklərində, sahibkarlıqla məşğul olması, turizm sahəsində çalışmaları üçün imkanlar yaradılması.
- ✓ İqtisadi rayonun milli mətbəxinin tanıdılması və yerli məhsullara marağın cəlb edilməsi.
- ✓ İqtisadi rayonun relyefi təbiətinin zənginliyi burada təbii vasitələrdən kosmetik dərmanlar hazırlanması, dərman bitkiləri və arıçılıq təsərrüfatı vasitəsilə yerli istehsalın genişlənməsi və artırılması.

3. Turizmin regionda inkişafı ilə dövlət büdcəsinə daxil olan gəlirin artması

- ✓ Turistlərin cəlb olunması ilə əldə edilən maliyyə gəliri vasitəsilə vergilərin artması, iqtisadi gəlirə müsbət təsir göstərməsi,
- ✓ Xarici və yerli turistlərin regiona cəlb edilməsi ilə gələn valyutanın ölkəyə daxil olması,
- ✓ Bölgəyə investisiya qoyulması və turistlərin cəlb edilməsi ilə maliyyə gəlirinin artması. İnvestisiyaların bölgəyə cəlb olunması. Bölgəyə xərclənən maliyyənin artımla geri qayıtması regionun infrastrukturu ilə sıx bağlıdır. Əlverişli iqtisadi mövqey ərazidə turizm obyektlərinin tikilməsində mühüm əhəmiyyət kəsb edir.

4. Sağlamlıq turizminə dəstək nəticəsində insan kapitalının inkişafı mümkün olur.

- ✓ Turizmdə sağlamlıq xidmətlərinin inkişafı üçün sahə üzrə ixtisaslı kadrların yetişdirilməsinə ehtiyac duyulur.
- ✓ Regionda insanların təhsil və peşə kursları vasitəsilə bacarıqlarının inkişaf etdirilməsi.

5. İnfrastrukturun inkişaf etdirilməsi.

- ✓ Regiona səyahət edən turistlərin rahatlıq səviyyəsinin yüksəldilməsi üçün Yeni yolların çəkilməsi, otellər, istirahət mərkəzləri və tibbi müəssisələrin tikilməsi və yenidən qurulması.

- ✓ Su təchizatı, elektrik enerji problemlərinin aradan qaldırılması və kommunikasiya əlaqələndirmə sistemlərinin təkmilləşdirilməsi, yenidən qurulması.

Şəki-Zaqatala iqtisadi regionunda sağlamlıq turizminin nümunələrinə nəzər salaq:

1. İstisu və müalicəvi əhəmiyyətli termal sular

- ✓ Balakən, Zaqatala, Qəbələ və Şəki bölgələrində bir sıra təbii mineral bulaqlar yerləşir. Mineral bulaqlardan istifadə nəticəsində insan orqanizmində həzm sistemini yaxşılaşdırır, dəri xəstəliklərinin müalicə, sümük ağrıları, insan sağlamlığında yaranmış problemlərin aradan götürülməsinə müsbət təsir göstərir. (Şollar suyu)
- ✓ İqtisadi regionun Qax rayonu ərazisində müalicəvi əhəmiyyət daşıyan "İlisu termal bulaqları" yerləşir. Yüksək minerallaşmış isti suya sahib rayon, insan bədənində mövcud olan müxtəlif xəstəliklərin müalicəsində əsasən revmatizma ağrılarına, dəridə yaranmış müxtəlif tipli ləkələrə, sinir sisteminin müalicəsində müsbət təsir göstərir.

Şəki- Zaqatala iqtisadi rayonunun ərazisində bir sıra müalicəvi xidmət göstərən sanatoriya, sağlamlıq mərkəzləri fəaliyyət göstərir. Nəzər salaq

1. Qax şəfa sanatoriyası – Burada termal sularla müalicə, spa prosedurları və fiziki terapiya xidmətləri təklif olunur.
2. Şəki sağlamlıq mərkəzi – Təbii müalicə metodları, təmiz hava və otel xidmətləri ilə birlikdə reabilitasiya imkanları təqdim edir.
3. Zaqatala dağ kurortu – Dağ iqlimi və ekoloji təmiz şərait burada istirahət və sağlamlıq turizmi üçün ideal şərait yaradır.

Şəki-Zaqatala iqtisadi regionu turizmin inkişafında təbiəti, heyvanlar aləmi, sağlamlıq imkanları ilə məşhur olması ilə yanaşı həmçinin region tranzit ticarət yolarının üzərində yerləşir. Gürcüstan və Rusiya federasiyası ilə sərhət ticarəti inkişaf etdirilməkdədir. Regionda turizm inkişaf etdirilməsi, qonşu ölkələrlə tranzit ticarət əlaqələrinin yaradılması ilə yanaşı iqtisadi regionun rayonlarında logistika sahəsi fəaliyyətə başlamış və nəhəng ticarət mərkəzləri inkişaf etdirilmişdir.

Regionun müxtəlif iqlim qurşağlarında yerləşməsi, dəyişkən hava şəraiti ilə əlaqədar olaraq elektrik enerjisinin verilməsi problemi yaşamasının qarşısının alınması üçün bir sıra tədbirlər həyata keçirilməlidir. Belə ki, həddindən artiq yağıntı, güclü külək elektrik enerji sisteminin vəziyyətinin korlanmasına səbəb olur. Əsas problemlərdən olan alternativ enerji təminatının təmin edilməsi probleminin aradan qaldırılması üçün bir sıra həlledici məqamlara nəzər almaq lazımdır.

- ✓ Region ərazisində elektrik enerjisinin təmin edilməsi üçün kiçik su elektrik stansiyalarından istifadənin təkmilləşdirilməsi;
- ✓ Günəş və külək enerjisindən istifadənin təkmilləşdirilməsi üzrə əsaslı tədbirlər həyata keçirilməlidir.

Şəki-Zaqatala iqtisadi regionu turizmin inkişafında mühüm relyef, flora faunaya malik olmaqla yanaşı, kənd təsərrüfatı, turizm və sənaye potensialı ilə Azərbaycanın əsas iqtisadi regionlarından sayılmaqla, turizmin iqtisadi inkişafında mühüm strateji əhəmiyyətə malikdir.

## 1.2.Regionun turizm obyektləri və tarixiliyi

Şəki-Zaqatala iqtisadi rayonu zəngin tarixi, mədəniyyəti və təbiəti ilə Azərbaycanın ən mühüm turizm bölgələrindən biridir. Burada yerləşən turizm obyektləri müxtəlif dövrlərə aid tarixi abidələri, təbiət gözəlliklərini və müasir istirahət məkanlarını əhatə edir. İqtisadi regionda turizmin inkişafında bu amillərin mühüm əhəmiyyət kəsb etməsi ərazinin turizm potensialının yüksək olmasına səbəb olur. Şəki rayonun turizmin əvvəlki dövlərdən turizmin inkişafını təsdiqləyən bir sıra tarixi izlər daşıyan abidələri mövcuddur. Şəki-Zaqatala iqtisadi rayonunun turizm sahəsi üzrə inkişafına təkan verən ərazidə yerləşən tarixi və mədəni abidələrə nəzər salaq.

1) **Karvansaralar** – Orta əsrlərin nümunələri olan nümunələr Şəkinin ticarət yollarında mühüm mərkəzlərdən olduğunu nümayiş etdirir. Ərazidə yerləşən karvansaralar kiçik və orta həcmli olmaqla fərqlər mövcuddur.



**Şəkil. 1.1. Karvansaralar**

2) **Şəki Xan Sarayı** – XVIII əsrdə əsası qoyulduğu bildirilən bu saray Azərbaycan həm memarlığının incilərindən, həm də tarixin izlərini daşıyan abidələrdən biri olması insanların diqqətini cəlb edir. Abidənin quruluşu, mühüm turizm əhəmiyyəti daşıması ən əsası tarixi nümunə olması nəticəsində UNESCO-nun dünya irs siyahısına daxil edilmişdir.



**Şəkil 1.2. Şəki Xan sarayı**

3) **Kiş Alban Məbədi** – VI-VII əsrlərə aid olması bildirilən abidə insanların dinlərə etiqad etməsinin göstəricisidir. Qafqazın dini mərkəz olmasını bildirən nümunələrdəndir.



**Şəkil 1.3. Kiş Alban məbədi**

Zaqatala şəhəri turizmin inkişafına töhvə verən şəhərlərimizdəndir. Zaqatala şəhərində yerləşən tarixin izlərini daşıyan nümunələrə nəzər salaq.

- ✓ **Mamrux məbədi** – Orta əsrlər dövrünə aid olduğu qeyd olunan məbəd dini ayinlərin yerinə yetirilməsi üçün istifadə edilmişdir. Bu kilsə qədim alban irsinin nümunələrindən biri hesab olunur. Burada atışpərəstlik dinin dini ayinlərinin keçirilməsi hal-hazırda turizmin inkişafında mühüm rol oynayan turizm müəssisəsi hesab olunur.



**Şəkil. 1.4. Mamrux məbədi**

- ✓ **Zaqatala qalası** – XIX əsrdə əsası qoyulduğu deyilən qala ruslar tərəfindən tikilmişdir. Qalanın tikilməsinə səbəb olaraq hərbi-strateji əhəmiyyət daşıması göstərilir. Dövrünün müdafiə xarakteri daşıyan bu qala hazırda turizm obyekti kimi turistlərin diqqət mərkəzindədir.



**Şəkil 1.5. Zaqatala qalası**

Şəki - Zaqatala iqtisadi regionunda yerləşən tarixi əhəmiyyət daşıyan abidələrin və qalaların yerləşdiyi rayonlardan biri Qax rayonudur. Qax rayonunda yerləşən bir sıra tarixi izlər daşıyan qala və abidələrə nəzər salaq

- ✓ **Sumuq Qalası** – Qafqaz Almaniyasının qalıqlarından hesab olunan qala Azərbaycanın arxeoloji tapıntılardandır. Arxeologiyanın izlərini daşıyan qala turistlərin diqqətinin cəlb olunmasında mühüm əhəmiyyət kəsb edir.



**Şəkil 1.6. Sumuq qalası**

- ✓ **İlisu Səngər Qalası** – Qalanın təməli XVIII əsrdə qoyulmuşdur. Qala xanlıqlar dövründə müdafiə məqsədilə istifadə olunub. Qalanın ölkəmizin tarixində mühüm əhəmiyyət daşıyan tarixi əhəmiyyəti insanların diqqətini cəlb edir.



**Şəkil 1.7. İlisu Səngər qalası**

Balakən rayonu iqtisadi regionun turizm mərkəzlərindən biridir. Rayon ərazisində tarixi kilsə və məbədlər vardır. Bu tarixi nümunələr turizm xarakterli tikililər olmaqla turistlərin diqqətinin cəlb olunmasında, maadiyyat əldə olunmasında mühüm əhəmiyyət kəsb edir.

- ✓ Rayonun tarixi Qafqaz Albaniyasının mövcud olduğu dövrün qədim abidələri ilə zəngindir. Ərazidə yerləşən tarixi obyektlərdən biri də Orta əsr məbədlər və kilsələridir. Alban məbədlərinin izləri qorunub saxlanmaqdadır.

- ✓ Balakən ərazisində qədim dövrlərdə mövcud tarixi rejimin qalıqlarından biri də xristian dininin regionda mövcud olmasını sübut edən dini məbədlərin mövcud olmasıdır. Bu məbədlərdən biri də  Katex məbədidir.

Şəki-Zaqatala iqtisadi regionunun tərkibinə daxil olan şəhərlərdən biri Qəbələ şəhəridir. Qəbələ şəhəri turizmin mərkəzlərindən sayıla biləcək potensiala sahibdir. Şəhərdə hər il beynəlxalq əhəmiyyətli musiqi festivalı keçirilir, buraya müxtəlif ölkələrdən incəsənət nümayəndələri dəvət edilir. Regionun dağlıq və sıx meşəliklərlə əhatə edilməsi keçirilən musiqi festivalında iştirak edən turistlərin musiqinin sədaları altında təbiətin qoynunda vaxtlarını səmərəli keçirirlər.

Şəhərin müasir obyektləri ilə yanaşı, tarixiliyi ilə də turizmin mərkəzlərindən olması mümükündür. Qeyd edə bilərik ki, Qəbələ şəhərinin e.ə. IV əsrdən eramızın III əsrinə qədər qədim Albaniya dövlətinin paytaxtı olması onun tarixi region olmasını göstərir. Bu səbəbdən də buraya müxtəlif ölkə və rayonlardan insanlar ziyarətə gəlirlər.

Şəhər geniş arxeoloji əhəmiyyət daşıyan qala sistemləri ilə zəngindir. Buranın tarixiliyi şəhərin UNESCO-nun mədəni irsinə daxil edilməsinə istiqamət vermişdir. Qeyd edə bilərik ki, bura turizmin inkişafı üçün avantajlı mövqeyə sahibdir.

Qəbələ şəhərinin daxilində bir sıra strateji əhəmiyyətli kəndlər mövcuddur. Şəhərin daxilində bir çox kəndlər vadrdır. Bu kəndlər tarixi əhəmiyyət kəsb edir. Muxur Qəbələ bu kəndlər sırasında olmaqla orta əsrlər dövrünə aid tarixi yaşayış yerləri ilə zəngindir. Ərazidə tarixi dövrə aid memarlıq abidələri mövcuddur. arxeoloji qazıntılar zamanı ev əşyaları tapılmışdır. Ərazidə tapılmış nümunələr turistlərin ziyarət edə bilməsi üçün sərgilənir.

Qəbələ şəhərinin kəndlərindən olan Çuxur Qəbələ ilə yanaşı Nohurqışlaq kəndində də Alban kilsəsi mövcuddur. Kilsə ilə bağlı araşdırmalar nəticəsində tarixinin VII-IX əsrlərə aid olması ehtimal edilir. Bu kimi nümunələrlə yanaşı ərazidə yerləşən kəndlərdə türbə, tarxi-diyarşünaslıq muzeyi vardır. Şəhəri fərqləndirən əsas məqam isə ərazi olaraq bütün hissələrində turizm fəaliyyətinin nümunələrinin şahidi oluruq. Bu tarixi nümunələr elmi araşdırmalarla mışğul olan tarixçilərin diqqətini daha çox cəlb etdiyindən əraziyə ziyarətləri baş tutur.

Qəbələ şəhərinin tarixi, mədəni irsinin zənginliyi, muzeylər, otel və mehmanxanalar, restoranların mövcud olması turizmin mövcud vəziyyətinin inkişaf etdirilməsində əhəmiyyətli mövqey daşıyır. Şəhər turizmin mərkəzinə çevrilmə istiqamətində inkişaf etməkdədir. Şəhərin gözəlliklərinin izlənilməsi, turizm obyektlərinin fəaliyyəti, yüksək qonaqpərvərlik xidmətləri müxtəlif ölkələrdən əraziyə insanların səyahət etməsinə təkan verir. Ərazidə müxtəlif otellərin olması, əyləncə mərkəzlərinin fəaliyyəti insanların vaxtlarının səmərəli keçirmələrinə kömək edir.

Şəki – Zaqatala iqtisadi rayonunun relyefi, təbiəti, flora və faunasının zənginliyi burada bir sıra qoruq və milli parkların yaradılmasına səbəb olmuşdur. Təbiətin qorunmasına xüsusi diqqət göstərilməsi, qoruqlar, ovalıq, çay və şəlalərin yerləşdiyi ərazi turizmin inkişafı üçün müsbət iqtisadi dəyər daşıyır. Region Sağlamlıq turizminin mərkəzlərindən hesab edilə biləcək struktura sahibdir. Burada sanatoriya, istirahət kompleksləri yerləşir. Region böyük turist axına səbəb olduğundan burada yerləşən turizm obyektlərin illər üzrə istifadənin sayına nəzər sala bilərik. Həmçinin turizm mərkəzləri turistlərin istifadəsinə yardımçı olur.

**Şəki-Zaqatala iqtisadi regionunda illər üzrə fəaliyyət göstərən turizm obyektlərinin sayı**

**Cədvəl 1.2.**

| İLLƏR | OBYEKTLƏRİN SAYI |
|---|---|
| **2020** | 72 |
| **2021** | 73 |
| **2022** | 78 |
| **2023** | 77 |
| **2024** | 80 |

[Azərbaycan Dövlət turizm Agentliyi. 31]

Azərbaycan Dövlət Statistika Komitəsinin vermiş olduğu statistik göstəricilər əsasında ərazidə turizm obyektlərindən istifadənin sayı göstərilmişdir. Verilmiş sayın çox aşağı olması regionda turizmin inkişaf etməkdə olmasıdır. Lakin qeyd etmək

lazımdır ki, regionda yerləşən obyektlərin ilbəil artması müşahidə edilir. İllər üzrə obyektlərin say artımında kəskin fərqlər olmasa da hər bir yeni obyekt turizm kütləsinin xəbərçisidir. Həmçinin qeyd edilməlidir ki, iqtisadi region üzrə turistlərin tələbatı fərqli şəkildə təzahür edilir. Şəki-Zaqatala iqtisadi regionu tarixi-mədəni, həm də ekoloji turizmin inkişaf etdirilməsi ilə Azərbaycanda turizmin inkişafı yolunda mühüm əhəmiyyət kəsb edir.

## 1.3.Regionun turizm inkişafında iqlim xüsusiyyətləri

Şəki-Zaqatala iqtisadi rayonunda turizm inkişafının formalaşdırılmasında əsas amillərə iqlim şəraitinin əlverişli olmasıdır. Relyefin müxtəlifliyi regionda müxtəlif iqlim tiplərinin yaranması ilə müşahidə edilir. Regionun iqli müxtəlifliyi burada turizmin mövzümlük deyil daimi olaraq mərkəzlərdən olmasında mühüm rol oynayır. Burada həm yay, həm də qış turizminin inkişafı iqtisadi səmərəliliyinin artmasına yardımçı olur. Regionun relyef xüsusiyyətlərinə görə rayonlar üzrə müxtəlif iqlim tiplərinin mövcud olduğuna görə iqlim tiplərinə nəzər salaq.

- ✓ **Subtropik iqlim**– iqtisadi regionun Balakən, Qax, Zaqatala rayonlarının ərazisində mövcud olan bu iqlim tipi əsas olaraq qışda havaların yumşaq, yayda isə isti keçməsinə səbəb olur. İqlim tipinin regiona olan əsas müsbət keyfiyyəti burada kənd təsərrüfatı və ekoloji turizmin inkişaf etdirilməsinə istiqamət verir. Ekoloji turizm regionun əsas turizm sahələrindən hesab edilir.
- ✓ **Mülayim isti iqlim** – iqlim qurşağı iqtisadi rayon ərazisində isti aylarda temperaturun 25-30°C arasında dəyişilməsinə səbəb olur. İqlimin mövcudluğu yay turizminin inkişafına təkan verir. Bu iqlim tipi daha çox Şəki, Qax və Oğuz rayonlarında müşahidə edilir. Rayonlarda yay turizmi daha çox inkişaf edir və ən əsası iqtisadi səmərəliliyin inkişafında müsbət nəticə verir. Mülayim iqlimin əsas cəhəti mövsümlə əlaqədar turizmin inkişafına səəb olur.
- ✓ **Dağlıq və dağətəyi iqlim şəraiti** – Böyük Qafqaz dağların ətəklərində mövcud olan iqlim şəraiti qış aylarında turizmin inkişaf etdirilməsində əlverişli şərait yaradır. İqtisadi regionun Qafqaz sıra dağlarında yerləşməsi yay-qış turizminin

geniş yayılmasına və turizmin müxtəlif sahələri üzrə inkişaf etdirilməsinə yardımçı olur. Qış aylarında temperaturun ( -10°C) aşağı olması turistlərin diqqətini daha çox cəlb edir. Qış turizmi turistlərin qış aylarında dağ turizminə (xizək) marağını daha da artırır.

Şəki – Zaqatala iqtisadi regionunun müxtəlif iqlim qurşaqlarında yerləşməsi burada turizmin bir çox sahələrinin inkişaf etdirilməsinə, insanların işsizlik şəraitinin yaxşılaşdırılmasına yardımçı olur. Fəsillərə uyğun olaraq iqlimin turizmə göstərdiyi təsirlərə nəzər salaq. Yay turizminə iqlimin təsirinə nəzər salaq.

- ✓ Yay aylarında yay turizminin inkişafında regionda temperaturun mülayim olması turistlərin daha çox Şəki, Qəbələ, Zaqatala və Qax rayonlarına üz tutmasına səbəb olur.
- ✓ İqtisadi rayonun dağlarla əhatə olunması, çaylar, şəlalələr ilə əhatə olunması turistlərin marağına səbəb olur. Turistlərin diqqətini cəlb edən əsas hissə isə ekoloji turizmin inkişaf etdirilməsidir. Qeyd etmək lazımdır ki, ekoloturizmin inkişafı xarici və milli turistərin axınına və turizmin inkişafına təkan verir.
- ✓ Bölgədə sağlamlıq turizminin inkişafı, insanların marağını daha çox cəl edir. regiona səyahət edən insanlar daha çox təmiz hava, canlı təbiətdə idman etmək kimi istirahət növlərindən yararlanırlar.

İqtisadi regionun iqlim müxtəlifliyi Qış turizminə də təsir göstərir.

- ✓ Dağlıq ərazinin genişliyi, qış fəslində yağan qarlar dağ turizminin inkişafında əsas rol oynayır. Regionda qış turizmi insanların maraqlarını daha çox cəlb edir. bu səbəbdəndir ki, regionda qış turizminin inkişafı istiqamətində dağlarda qarın yağması ilə xizək mərkəzləri fəaliyyətə başlayır. Araşdırmalar əsasında məlum olmuşdur ki, xizək mərkəzinin mövsümə uyğun açılması ilə xarici turistlər, əsasən Rusiya vətəndaşları regiona axın edirlər. Qış turizmində insanlar dağ idman növlərindən daha çox maraq göstərirlər.

İqtisadi rayonun Şəki, Qax və Zaqatala şəhərlərində qış turizminin inkişafında dağ idman növlərindən daha çox istifadə edilir. Dağ idman növlərindən xizək idman növü daha çox əhəmiyyət daşıyır.

- ✓ Qış aylarında qar yağması, qarın uzun müddət qalması idman növlərinin xizəkçiliyin inkişafı nda potensial yaradır.

Şəki – Zaqatala iqtisadi regionun müxtəlif rayonlarında mineral sular və müalicəvi bulaqlar yerləşir. Mineral sular, bulaqların mövcud olması ərazidə sanatoriya və sağlamlıq turizminin inkişafına təkan verir. Mineral sular və müalicəvi bulaqların turistlərə göstərilməsində tur bələdçilərinin istiqamətləndirməsi çox əhəmiyyətlidir. Dağ havasının təmizliyi müxtəlif xəstəliklərin müalicəsində faydalı olması hesab olunur. Dağlıq region sıx meşəliklərlə əhatə edilmişdir. Həmçinin burada müxtəlif heyvanlar mövcuddur.

Şəki Zaqatala iqtisadi rayonunda turizmin inkişafına əsas təsiredici amil olaraq iqlim şəraiti göstərilir. İqlimin zənginliyi turizmin inkişafına təkan verir. Turizm region insanlarının əsas məşğuliyyət sahinə çevrilməkdədir.

**Şəki-Zaqata iqtisadi regionunda fəsillərə uyğun olaraq aylar üzrə turizmin tələbat gördüyü aylara.**

**Cədvəl 1.3.**

| Turizm növü | Əlverişli mövsüm |
|---|---|
| **Yay turizmi** | İyun – Sentyabr |
| **Qiş turizmi** | Dekabr – Fevral |
| **Ekoturizm** | Yaz – Yay |
| **Sağlamlıq turizmi** | İlin bütün fəsilləri |

Nəticə olaraq qeyd edə bilərik ki, burada müxtəlif iqlim tiplərinin mövcud olması ərazidə turizmin inkişaf imkanlarının qarşısına keçməyərək turizmin yay, qış fəsillərində fasiləsiz tələbat görməsində yardımçı olur. Regionun müxtəlif iqlim tiplərinə sahib olması il boyu burada turizmin müxtəlif sahələrinə tələbatlar yaranır. İnsanların tələbatlarının ödənilməsində isə iqtisadi regionun turizm sektoru önəmli faktor rolunu oynayır.

# II FƏSİL: RAYONDA TURİZMİN MÖVCUD VƏZİYYƏTİ VƏ PROBLEMLƏRİ

## 2.1. Regionda turizmin inkişafinda rol oynayan resurslar(otel, nəqliyyat, yollar və s.)

Şəki- Zaqatala iqtisadi rayonu turizmin inkişaf etməkdə olan regionudur. İqtisadi rayon ölkənin şimal-qərbində yerləşərək dağlıq ərazini əhatə edir. Ərazinin təbiəti gözəl, tarixi isə zəngindiR. Zəngin təbiəti, tarixi regionun turizm potensialinin yüksəldilməsində mühüm obyektləridir.

Zəngin tarixi irsə sahib olan region turistləin diqqət mərkəzində olur. Ərazinin təbiət gözəlliyi, tarixiliyi əraziyə olan marağın artmasına səbəb olmaqla ərazidə turizm obyektlərinin yaradılmasına səbəb olmuşdur.Yaradılmış olan turizim obyektləri iqtisadi gəlirin artmasına, ərazinin gözəlliklərinin dünyada tanınmasına səbəb olur. Ərazidə bir sıra turizm obyektləri fəaliyyət göstərir ki, bu da iqtisadi rayona daxil olan şəhərlərdə yerləşmişdir.

Şəki-Zaqatala iqtisadi regionun ərazisində yaradılmış olan **"Sheki Palace Hotel", "Marxal Resort & Spa", "Yurd Hotel"** fəaliyyətləri zamanı həm yerli, həm də xarici turistlərin asudə vaxtlarının düzgün qiymətləndirilməsində yardım edir. Regionda yaradılmış olan obyektlər ərazinin cəlbediciliyini artırır. Müasir tələblərə cavab verən infrastruktur yüksək xidmət keyfiyyəti ilə fərqlənir.

Şəki-Zaqatala iqtisadi regionunda yerləşmiş otellər müasirlik və tarixiliyin qarşılıqlı əlaqəsi əsasında qurulmuşdur. İqtisadi regionlarda müxtəlif tarixi abidələrin mövcud olması və qədim memarlığın izlərinin saxlanılması otellərin dizaynındaözünü əks etdirmişdir. Şəki-Zaqatala iqtisadi rayonunun ərazi strukturu, turizm obyektlərinin bolluğu, istirahət mərkəzləri, restoran, otellərinin olması ərazinin istifadəsində mühüm keyfiyyət göstəricisidir. Ərazinin gözəlliklərindən agah olunması, təbii sərvətlərindən istifadə olunmasında lazımlı olan digər bir vasitə isə ərazinin nəqliyyat sistemidir. Baxmayaraq ki, turizmin mövcud olduğu bu regionda hələ də turizm nəqliyat sisteminin təşkil edilməsində xüsusi addımlar atılmamışdır. Həmçinin region ərazisini əhatə edən yolların təmiri vəziyyəti də ürəkaçan hesab edilmir. Yolların təmir vəziyyəti

aşağı olsa da turistlərin əraziyə cəlb olunmasında problem yaratmır. Səbəb olaraq isə turizm potensialının yüksək olması, tarixi zənginlik əsas meyar hesab edilir. Regionda müxtəlif səviyyəli otel və mehmanxaların mövcudluğu vəziyyəti daha da əlçatan edir.

Nəqliyyat vasitələrinin istifadə olunmasında yol əsas amildir. Yolların təmirli olması əraziyə səyahət zamanı şəxsi avtomobillərdən istifadə olunmasında kömək olur. Ərazi turizmin mərkəzlərindən olduğundan əraziyə turizm şirkətlərindən tur avtobusları, mikroavtobuslar vasitəsilə kütləvi axınlar olur. Nəqliyyatın rahat şəkildə əraziyə çatmasında isə Bakı-Şəki, Bakı-Qəbələ və Bakı-Zaqatala nəqliyyat yollarının təmir vəziyyətinin qənaətbəxş olmasıdır. Turizmin əsas sənaye sahəsinə çevrilməsi üçün aparılan müxtəlif yeniliklərə yolların abadlaşdırılması və müasir standartlara cavab verməsi önəm kəsb etməlidir. Qeyd etməliyik ki, yolların istifad əedilə bilən olmasına baxmayaraq növbəti illərdə yolların qəza vəziyyətinin artması ilə müşahidə oluna bilər.

Səyahətin sistemli və rahat şəkildə təşkil olunmasında nəqliyyat vasitələrinin önəmi vurğulanmalı amillərdəndir. Turistlərin Şəki-Zaqatala iqtisadi regionunda yerləşən ərazilərə səyahət etməsi üçün müvafiq nəqliyyat sisteminin qurulması vacibdir. Ərazidə yerləşən otellər, turizm obyektləri turistlərin diqqətini cəlb etçəsi buraya turist axınının baş tutmasına yol açır.

Regionda yerləşən tarixi abidələri, regionun mədəni iris adət-ənənəsi diqqətəlayiqdir. Geniş tariri irsə sahib olan regionda buranı səyahət etmək istəyən insanlar üçün turizm obyektləri fəaliyyət göstərməkdədir. Regiona daxil olan otellərdə bir sıra otellər, mehmanxana, kotec və xüsusi evlər mövcuddur. İnsanlar səyahətlərini təhlükəsiz şəkildə edərək ərazi haqqında geniş məlumat əldə edə bilər.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan ərazilərdə yerləşmiş otellər qiymət fərqinə görə dəyişilir. Bu insanların büdcəsini aşmadan səyahətlərini, istirahətlərini rahat şəkildə etmələrinə yardımçı olur. Əraziyə səyahət edən turistlərin məqsəd olaraq müxtəliflik təşkil etsə də bu səyahətlər regionda turizmin inkişafına təkan verir.

Şəki-Zaqatala iqtisadi regionu daha cəlbedici edən əsas amil regionda təbii parklar, meşələr, dağlar, çaylar mövcuddur. Bu cür təbii zənginlik insanların diqqətini

daha çox cəlb edir. Iqtisadi regionun əlavə xərc qoymadan bu gözəl təbiətə sahib olması onun iqtisadi inkişafına daha da təkan verir.

Ərazidə turistlərin səyahətinin təmin edilməsi üçün onlara kömək edən tur bələdçiləri mövcuddur. Qeyd etməliyik ki, ərazinin florası kimi faunası da çox genişdir. Dağlıq ərazilərdə turistlərin sərbəst şəkildə gəzməsi biraz təhlükəli ola bilər. buna görə də bələdçilər regionda fəaliyyət göstərirlər. Turlar vasitəsilə gələn turistlərə turbələdçilərinin yardımı ilə regional tanış olurlar.

Şəki- Zaqatala iqtisadi regionuna daxil olan bölgələrin hər birinə xüsusi turlar təşkil edilir ki, burada insanlar vaxtlarını səmərəli şəkildə təşkil edə bilirlər. İnsanlar səyahət edərkən tur avtobusları vasitəsilə və xüsusi maşınlar kirayə edərək regiona səyahət edirlər. Səyahət edən turistlərin arzu və istəklərinə görə turbələdçisi onlara kömək edir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların hər biri bir-birindən gözəl təbiətlə örtülmüşdür. Təbiətinin zənginliyi ilə rayonlarda müxtəlif otellər fəaliyyət göstərir. Otellərin elektron portalının mövcud olması buraya səyahə etmək istəyən insanların rahat şəkildə istəklərinə uyğun şəkildə seçimlər etməsinə yardımçı olur.

İqtisadi regiona daxil olmuş rayonların infrastruktur xüsusiyyətləri ilə yanaşı özünəməxsus mətbəxi turistlərin diqqəti cəlb edir. Şəki-Zaqatala iqtisadi regionuna daxil olmuş rayonların turizminin inkişafında nəqliyyat yollarının vəziyyəti hələ də tam hazır olmasa da ərazidən turizm məqsədlər üçün istifadə edilir. Iqtisadi regiona daxil olmuş rayonların dağlıq ərazilərdə yerləşməsi vəziyyəti biraz da çətinləşdirir. Burada yerləşən turizm obyektlərinin bir çox dağlıq ərazilərdə yerləşdiyindən havaların soyuması ilə əraziyə gediş və gəliş çətinləşir. Ərazinin relyefinin dağlıq olması nəqliyyat yollarının tez-tez sıradan çıxmasına səbəb olur.

Qış aylarında yolların nasazlığı və təmir vəziyyətinin aşağı səviyyədə olması ərazidə maşınlar üçün təhlükə yaradır.

Şəki-Zaqatala iqtisadi regionun ərazisində yerləşən otellərdə turistlərin ərazini gəzə bilməsi üçün maşınlar və avtobuslar fəaliyyət göstərir. Lakin burada ekoloji təmizliyin təmin olunmasına xidmət göstərən maşınlar çox az saydadır. Yalnız burada ekoloji təmizliyin təmin olunmasında dağlıq ərazilərdə kanad xətləri fəaliyət göstərir.

Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayon ərazilərindən keçən magistral yolların təmir vəziyətinin yaxşı olmaması turizm yollarının istifadəsində problemlər yaradır. Zaqatala-Balakən turizm yolları – iki rayonu bir-biri ilə əlaqələndirən magistral yolların istifadəsi nəticəsin böyük çatlar yaranmışdır. Bu çatlar yolların təhlükə vəziyyətindən xəbər verir. Həmçinin turizmin inkişafında mənfi təsirlər yaradır. Yaranmış çatlar isə yolun dağlıq ərazidə yerləşməsi və ərazidə torpaq sürüşməsinin baş verməsidir. Torpaq sürüşməsi yolun tez-tez sıradan çıxmasına səbəb olur. Qeyd etmək lazımdır ki, yolda lazımı yol hərəkət nişanları da mövcud deyildir.

## 2.2. Şəki-Zaqatala iqtisadi Rayonunda Turizmin Mövcud Növləri

Şəki-Zaqatala iqtisadi rayonu infrastrukturu, iqlim xüsusiyyətləri, zəngin flora və faunasının olması ilə ərazidə turizmin bir çox növləri fəaliyyət göstərir. Qeyd etmək lazımdır ki, ərazi süni gözəllikdən uzaq olaraq təbii gözəlliyi özündə əks etdirir. Bu xüsusiyyətləri ilə turizmin inkişaf zonaları da genişlənməkdədir. Şəki-Zaqatala iqtisadi rayonu ərazisində yerləşən turizm növlərinə nəzər salaq:

**1. Mədəni turizm –** iqtisadi regiona daxil olunmuş rayonların qədim tarixi, abidələri, tarixi qalaları, memarlıq nümunələrinin olması regionda turizmin inkişaf etməsinə səbəb olur. Turizmin inkişafına təkan verən əsas mədəni nümunələrə nəzər salaq:

- ✓ Şəki xan sarayı (UNESCO-ya daxil edilmişdir;
- ✓ Kiş-Alban məbədi;
- ✓ Zaqatala qalası.

Kimi tarixi nümunələr turistlərin regiona cəlb edilməsində mühüm əhəmiyyət kəsb edir. tarixi abidələrinin turistlər tərəfindən ziyarət edilməsi tariximizin dünya tanıdılması üçün mühüm addımdır. Tariximizin izlərin turizmin mərkəzində durması ölkəmizə iqtisadi inkişaf prosesində yardımçı olur.

**2. Ekoliji turizm –** iqtisadi regionun zəngin təbiəti, yaşıllıqlarının genişliyi havanın çirklənməsinin aşağı olması insanların təbiət qoynunda istirahətinin təmin olunmasında yardımçı olur. Ekoloji turizmin ərazidə inkişaf etməsi təbiətdə gəzməyi

sevən insanlar üçün vacib amildir. İqtisadi regionda dağ, meşə, qoruqların mövcud olması mühüm amildir. Ekoloji turizmin inkişafına dəstək verən obyektlər:

- ✓ İlisu dövlət təbiət qoruğu (Qax)
- ✓ Qəbələ, Balakən, Şəki və Zaqatalanın dağlıq zonaları
- ✓ Qəbələ meşə massivi

Ekoloji turizmin inkişafında əsas amil turistlərin dami təbiətə ekskursiyalara çıxması, orada gecələmək istəyi, meşə ərazisində, dağlıq zonalarda kiçik həcimli evlərin tikilməsi onların istirahətini daha da zəngin edir.

**3. Dağ turizmi –** iqtisadi regionun quruluşunun dağlıq ərazidə yerləşməsi dağ idman növü ilə məşğul olan insanların bu ərazilərə marağını artırır. Dağlıq ərazi iqtisadi regiona daxil olan bütün rayonların ərazisində mövcud olduğundan burada geniş şəkildə yayılmışdır.qış aylarında dağlarda bir çox xarici vətəndaşların axını ilə müşahidə edilən xizək sürülməsinin şahidi oluruq. Dağlıq ərazidə turizmin inkişafına təkan verən əsas fəaliyyət sahələrinə nəzər salaq:

- ✓ Dağ yürüşləri (idam növü olaraq),
- ✓ At yürüşləri (yerli əhalinin şəxsi atları),
- ✓ Xizək yarışları,(Qəbələ)
- ✓ Maşın turları .

**4. Sağlamlıq turizmi –** regionun sıx meşəlik olması, müxtəlif iqlim şəraiti ərazidə təmiz havanın mövcud olması sağlamlıq üçün faydalıdır. Sağlamlıq turizminin inkişafına yönəldilmiş məkanlara nəzər salaq:

- ✓ Marxal Resort & Spa (Şəki)
- ✓ SPA mərkəzləri (Qəbələ, Oğuz)
- ✓ Mineral bulaqlar (İlisu, Oğuz, Qəbələ, Balakən)

İnsanlar burada bədən və ruh sağlamlığı üçün dincəlirlər.

**5. Kənd turizmi –** İqtisadi regionun Zaqatala, Balakən, Şəki, Qax, Oğuz, Qəbələ rayonlarına daxil olan turizm xidməti göstərilən kəndlərində xüsusi qonaq evlər kirayə verilir ki, bu evlərdə insanlar kənd həyatını öyrənmələrinə yardım edir. xarici vətəndaşların kənd həyatına olan marağı, burada yaşmaq istəkləri insanlar üçün çox

əhəmiyyətlidir. Kənd turizmində turistlər üçün faydalı ola biləcəkfəaliyyətlərə nəzər salaq:

- ✓ Kənddə yaşayan yerli insanlarla eyni evi paylaşmaq, onların həyat şəraitinə uyğunlaşmağa çalışmaq,
- ✓ Kənddə yaşayan gündəlik işlərinə baxmaq,
- ✓ Kəndlərdə rayon mətbəxinin nümunələrinə uyğun olaraq yemək bişirməyə çalışmaq.

Bu kimi bir çox istəklər turistlərin kənd turizminə olan maraqlarını oyadır. Hər bir ölkənin özünəməxsus olan kənd həyatı digərləri üçün maraqdoğurucu hesab edilir.

**6. Qastronomik turizm -** Şəki-Zaqatala iqtisadi regionu özünəməxsus zəngin milli mətbəxi ilə tanınır. Regionu daha çox maraqlı edən burada məhşur olan təamların çoxluğudur. Məsələn: Şəki şəhərində

- ✓ Şəki paxlavası
- ✓ Piti (Şəki mətbəxinin simvolik yeməyi)

Regionun özünəməxsus mətbəxinin xarici vətəndaşlar tərəfindən öyrənilməsi, onların həm əyləncəli anlar yaşamasına, həm də mətbəx nümunələri vasitəsilə yeni yeməklərin və şirniyyatların öyrənmələrinə səbəb olur.

**7. İdman və mədəniyyət turizmi** – regionun zəngin təbiəti, təmiz iqlimi ərazidə idman yarışlarının təşkil olunmasında yardımçı olur. Burada idaman yarışları ilə yanaşı mədəni tədbirlərdə həyata keçirilir. İdman yarışlarının və mədəniyyət turizminin geniş şəkildə həyata keçirilməsi turistlərin turlar vasitəsilə əraziyə axın etməsinə yol açır. İl ərzində bir çox idman və Mədəniyyət tədbirləri keçirilir ki, burada xarici və milli insan kütləsinin olnması tədbirlərin daha geniş şəkildə təşkilinə yol açır. İqtisadi regiona daxil olan rayonlarda hər il bir sıra tədbirlər idman yarışları, musiqi festivalalrı kimi mühüm tədbirlər həyata keçirilir. Keçirilmiş əsas tədbirlərə nəzər salq:

- ✓ Şəki ipək yolu musiqi festivalı,
- ✓ Qəbələ beynəlxalq musiqi festivalı,
- ✓ Dağ velosipedi və yüngül atletika yarışları.

Şəki-Zaqatala iqtisadi rayonunda yerləşən müxtəlif turizm sahələrinin inkişaf etdirilməsi buraya gələn turistlərin müsbət rəylərlə qayıtmasına səbəb olur. Regionun

turizm zonası olaraq zənginliyi ərazinin kütləvi turist axını ilə qarşılaşmasına yardımçı olur.

## 2.3. Şəki-Zaqatala iqtisadi rayonunda kadr təminatı və xidmət xüsusiyyətləri

Şəki-Zaqatala iqtisadi rayonunda mövcud turizm sahəsinininkişafında turizm müəsisələrinin olması ilə yanaşı burada çalışan işçilərin xidmət xüsusiyyəti vacib amildir. Turizm sektorunda fəaliyyətdə olan otellər, restoranlarda kadrların ximət keyfiyyətinin yüksəldilməsində əhəmiyyətlidir. Sahədə çalışan kadrların bilik səviyyəsinin yüksəldilməsi onların xidmət keyfiyyətinin artması deməkdir.

Qeyd etmək lazımdır ki, rayonlarımızda fəaliyyət göstərən turizm sahələrinin uşçi kütləsini yerli əhali təşkil edir ki, bu əhali mövsümlük olaraq burada işlə təmin edilirlər. Bir sıra turizm müəsisələrində- otellər, mehmanxana və restoranlarda daha çox qış və yay aylarında işçi tələbatı olur. Hər mövsüm dəyişən işçilər burada daimi, bilikli ən əsası sahə üzrə mütəxəssisin tapılmasında çətinliklər yaradır. Regionda yalnız işçi sayının tamalanması qonaqlara göstərilən xidmətlə gecikmələrin olmaması üçün göstərilən xidmət bir çox halalrda turistlərin narazıçılığına səbəb olur. Əsas səbəb isə çalışanların dil biliklərinin aşağı olması və ya heç olmaması ilə bağlıdır.

Şəki-Zaqatala iqtisadi regionunda turizm obyektlərinin artması burada xidmət göstərəcək kadrlara olan tələbatın artması deməkdir. Ölkəmizdə turizmin inkişaf etməsi, müxtəlif otellər, turizm obyektlərinin yaradılması sahə üzrə mütəxəssislərin yetişdirilməsinə ehtiyac yaratmışdır. Kadr təminatının həyata keçirilməsi üçün sahə üzrə ixtisaslar yaradılmışdır. Universitetlərdə ixtisasların açılması, təlim kursları, peşə məktəbləri fəaliyyət göstərərək kadrların sayının artırılmasına xidmət göstərir. Son illərdə yardılmış olan peşə məktəblərində turizm xidmət sahələri üzrə işçi hazırlanması prosesi baş tutur. Burada aşbaz, bağban, santexnik və s. peşələrə sahiblənən işçilər turizm müəsisələrində fəaliyyət göstərə bilirlər. Nümunə: Gabala Garden Hoteldə bağban, santexnik, aşbaz, resptşın kimi fəaliyyət göstərən işçilər həmin kurslar və peşə məktəblərinin məzunlarıdır.

Qəbələ, Şəki, Zaqatala, Şəki, Qax rayonlarında peşə fəaliyyəti il məşğul olan peşə məktəbləri, kolleclər öz fəaliyyətlərində yeni ixtisaslar üzrə kadr hazırlığına

başlamışdır. Yeni ixtisaslar sırasına turizm sahəsi də daxil edilmişdir. Turizmin idarə edilməsi, turistlərin qarşılanması, yerləşdirilməsi, bələdçilik edilməsi kimi bir sıra turizm xidmətlərinin göstərilməsi üçün kurslar və təlimlər fəaliyyətə başlamışdır. Bu kurslarda kadrların dil səviyyəsi, sahə üzrə bilik səviyyəsi artırılır. Kurslar qısa müddətli olmaqla kadrlara sertifikatlar verilməsi ilə yekunlaşır. Bu sertifikatlar kadrların sahə üzrə alışmasına yardımçı olur. Təlimlər yerli və beynəlxalq olmaqla təşkil olunur. Bu təlimlərə ödəniş etməklə qoşulurlar.

Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişafda olması burada bilikli kadrlara olan tələbatın artırılmasına səbəb olur. Təəsüflər olsun ki, turizm sahəsində işləyən işçilərin dil səviyyəsi(ingilis, rus) və sahə üzrə bilikləri yetərli səviyyədə deyil. Həmçinin turizm müəsisəsində müasir texnoloji vasitlərinin sahə üzrə istifadə bacarığına sahib olmamaları, təcrübələrinin regionda turizmin irəliləməsində çətinliklər yaradır. Regionun turizm səviyyəsinin beynəlxalq standartlara cavab verməsə də buraya turistlərin cəlb edilməsində problemlər yaratmır.

Şəki-Zaqatala iqtisadi regionunda turizmin fəaliyyəti ilə məşğul olan kəndlərdə xarici dil biliyi, turizm xidmətləri aşağı səviyyədədir. Burada yaşayan insanlar maadi gəlir əldə etmək üçün öz şəxsi məhsullarını turistlərə satırlar. Qoyulmuş qiymətləri isə onlar öz istəklərinə uyğun şəkildə qoyurlar.

Şəki-Zaqatala iqtisadi regionunu daha maraqlı edən amil burada adət-ənənələr uyğun şəkildə turizm xidmətinin təşkil olunmasıdır. Regionda turistlərin qarşılanması, onlara göstərilən xidmət turistlər tərəfindən bəyənilir. Həmçinin yerli mətbəxlə tanış olur, regionun gözəl yeməkləri ilə tanış olub dadırlar. Regionda baş tutan bu səmimi qarşılama istər yerli, istərsə xarici turistlərin daha çox maraq dairəsinə daxil olur. Insanlara göstərilmiş xidmətlərdən məmnunluq hissi buraya günbə-gün turist axının baş verməsi ilə nəticələnir.

Şəki-Zaqatala iqtisadi regionunda turizm sektorunda kadrların bilik səviyyəsinin, yeni kadrların daimi olaraq inkişaf etdirilməsi, beynəlxalaq turizmin tələblərinə uyğun texnologiyaların tətbiq edilməsi, işçilərin sistemli şəkildə ixtisasartırma kurslarına cəlb olunması rəqabət qabiliyyətinin artırılması regionun turizm bazarındakı yerini qüvvətləndirə bilər. Turizmin regionda inkişafına təkan

verən kadrların bilik səviyyəsinin artırılması youlnda dövlət dəstəyinin verilmsi, dövlət tərəfində müvafiq prooqramların yaradılması, beynəlxalq turizm brendləri ilə əməkdaşlıq imkanlarının artırılması əsas faktorlardandır.

Şəki-Zaqatala iqtisadi regionunda turizmin sektorunda çalışan işçilərin turizm sahəsi üzrə bilik, bacarıq vərdişlərinin təkmilləşdirilməsində, formalaşdırılmasında təhsilin vacibliyi danılmazdır. Təhsil sisteminin vacibliyi bütün sahələrdə olduğu kimi turizmin inkişafında da əsas vacib məqamdır. Turizmin inkişafınaistiqamətlənmiş təhsil məlumatlarına nəzər salaq:

- ✓ Şəki-Zaqatala iqtisadi regionuna daxil olan regionlarda şəhərlərində turizm sektoru və xidmət sahəsi üzrə ixtisasların təkmilləşdirilməsində kurslar fəaliyyət göstərir. Məsələn: menecer, tur bələdçisi, otel administratoru və aşpaz peşələri üzrə içşilər hazırlanır.
- ✓ Azərbaycan fəaliyyətdə olan, turizm sahəsində xidmət edən turizm işçilərinin bir qismi Azərbaycan Turizm və Menecment Universiteti (ATMU), Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, özəl universitetlərdən gəlir. Həmçinin turizm sahəsi üzrə xarici ölkələrdə müvafiq ixtisaslar üzrə təhsil alaraq sahə üzrə fəaliyyət göstərirlər.

Son illərdə ölkəmizdə turizm sektoruna olan maraq turizmin inkişafında mühüm irəliləyişlərlə müşahidə edilir. Turizm sektorunun gələcək iqtisadi gəlir sahəsinə çevrilməsi istiqamətində dövlətimiz tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Azərbaycan Turizm Bələdçiləri Assosasiyasının yaranması ölkəmizdə turizmin inkişafı istiqamətində beynəlçalq və milli çərçivədə tanıdılmasında əsas yardımçı qurumdur. Assosasiyanın fəaliyyəti Şəki-Zaqatala iqtisadi regionunda turuzmin xarici və yerli qonaqlara ərazinin tanıdılmasında yardımçı olur. Belə ki, qonaqlar Assosasiyanın rəsmi səhifəsində bələdçi seçimi edərək Şəki-Zaqatala iqtisadi regionunda vacib, əhəmiyyətli turizm obyektlərini ziyarət edə bilər, regionda səyahət zamanı istirahətlərinin məqsədli və səmərəli təşkilində yardım ala bilərlər.

Zəki-Zaqatala iqtiisadi regionunda ilbəil artan turizm obyektləri, turistlərin axını regionda turistlərə xidmət göstərəcək işçilərə ehtiyac yaradır. Qeyd etməliyik ki, regionda fəaliyyət göstərən turizm sektoru mövsümü xarakter daşıdığından ilboyu

doluluq müşahidə edilmir. Şəki-Zaqatala iqtisadi regionunda turizm sektoruna xidmət verilən əsas sahələrə nəzər salaq:

***Qonaqpərvərlik xidməti-*** İqtisadi regionda fəaliyyət göstərən retoran və otellərdə yerli və əcnəbi turistlərin otel xidmətlərindən istifadə etməsi, restoranlardan istifadə etməsi burada fəaliyyət göstərən işçilərin iş fəaliyyətində məsuliyyətlilik tələb edir. qonaqpərvərlik xidməti müəssisədən istifadə edən qonaqların məmnunluq faizini artırır. Xidmətin düzgün təşkili müəssisədə qonaqların artımında da müəyyən rol oynayır. Müəsisələrlə yanaşı yerli insanların turistlərə göstərmiş olduqları qonaqpərvərlik xidməti gələn turistlərdə müxtəlif təsuratlar yaradır. İqtisadi regiona daxil olan rayon insanlarının açıqürəkli olması, doğmalıq hissinin insanlara aşılanması sahədə turizmin inkişafına önəmli töhvələr verir.

***Milli adət-ənənələrin tanıdılması xidməti:*** Şəki-Zaqatala iqtisadi regionunda tarixiliyin qorunması, milli adət və ənənələrimizin xarici və yerli turistlərə aşılanması mühüm əhəmiyyətli mövqey daşıyır. Turizm sahələrində adət-ənənələrin aşılanması istiqamətində turizm bələdçilərinin rolu böyükdür. Ərazinin mühüm olan adət-ənnələrinin dünyaya tanıdılması istiqamətində Azərbaycan Turizm Bələdçiləri Assosasiyasının bələdçilərinin rolu danılmaz gerçəklikdir. Beləki rəsmi səhifədə yerləşdirilmiş xəritə üzrə turistlər bölgə üzrə bələdçini rahatlıqla seçə bilirlər. Bələdçilər regionun bütün əhəmiyyətli məlumatlarını müxtəlif dillərdə insanlara çatdırırlar. Kənara çıxma ölkəmizin tarixi, adəti-ənənəsinin geniş şəkildə dünyaya tanıdılmasına səbəb olur. Həmçinin bu amil turistlərin diqqətini daha çox cəlb edir.

Regiona daxil olan rayonlarımızda turizm fəaliyyəti ilə məşğul olan kəndlərdə milli yeməklərimizin bişirilərək turistlərə daddırılması onların diqqətini cəlb edir. müşahidələr nəticəsində turistlərin diqqətini milli adət-ənəmizin ahəngdarlığı, genişliyi, zəngin mətbəximiz cəlb edir. Həmiçin ölkəmizin tarixi geyimləri, milli rəqsləri adət-ənənəmizin əsas predmetləridir.

Şəkinin qədim tarixi, memarlıq nümunələri, Şəki xan sarayında xüsusilə şəbəkələrdən hazırlanmış memarlıq abidəsi xüsusi diqqət cəlb edən məqamlardandır.

***Turizm xidmətləri:*** Şəki-Zaqatala iqtisadi regionunda turizm obyektlərinin çoxluğu turistlərin seçim imkanlarının da çox olması deməkdir. Turistlər burada

büdcələrinə uyğun yaşayış yeri tapa bilərlər. Regionda beynəlxalq standartlara cavab verən otellərlə yanaşı kiçik həcmli otellər də fəaliyyət göstərir. Qeyd etməliyik ki, burada yerləşən kəndlərin ərazisində turistlərin səyahətlərinin səmərəli təşkilinə xidmət göstərən şəxsi evlər fəaliyyət göstərir. Bu evlərdə turistlərin rahatlıq səviyyəsinə uyğun hər cür şərait yaradılmışdır. Azərbaycan Dövlət statistika komitəsinin rəsmi saytında yerləşdirilimiş statistikaya uyğun olaraq turistlərin illər üzrə rayonlarda yerləşən turizm mehmanxanalarından istifadəsi göstərilmişdir.

**İllər üzrə rayonlarda otel və Mehmanxana xidmətlərindən istifadə etmiş turist sayı.**

**Cədvəl 2.1.**

| İqtisadi Rayonlar | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| Balakən Rayonu | 63 | 16 | 176 | 412 |
| Qax Rayonu | 206 | 15 | 107 | 60 |
| Qəbələ Rayonu | 19.883 | 27.505 | 100.104 | 75.049 |
| Oğuz Rayonu | - | - | - | - |
| Şəki Rayonu | 302 | 424 | 1.715 | 6.492 |
| Zaqatala Rayonu | 103 | 90 | 161 | 235 |

[Azərbaycan Respublikası Dövlət Statistika komitəsi. 27]

Məlumat əsasında qeyd edə bilərik ki, burada əks edilən statistik məlumatlar yalnız otellərə aiddir. Bu otellərdə göstərilmiş statistika əsasında deyə bilərik ki, turistlərin regionlara səyahət sayı bu saylardan ibarətdir. Bu saylar yalnız mehmanxana xidmətindən istifadə edən turistlərə aiddir.

Şəki-Zaqatala iqtisadi regionunda yerləşən otellərin və kurort xidmətləri göstərən obyektələrin göstərmiş olduqları xidmət səviyyəsi yüksək səviyyədədir. Burada göstərilmiş olan xidmətin keyfiyyət göstəricisinin yüksək olmasına əsas səbəb xidmət göstərən işçilərin təlimlərdə iştirak etməsi, xarici proqramlara yönləndirilmələridir. Bu xidmətlərin yüksək şəkildə təşkil olundu şəhərlər ə isə Qəbələ və Şəki şəhərlərini xüsusi nümunə göstərmək mümkündür. İki şəhərdə də böyük otellər fəaliyyət göstərir otellərin müasir turizm standartlarına cavab verməsi və hər bir otelin

rəsmi internet səhifəsinin olması axtarış sistemlərində asanlıqla tapılmasına yardımçı olur. Bu otellərdə ilin hər fəalində turistlər olsa da əsas tələbat mövsümlə əlaqədar olur. Bura da da biz daha çox yay və qış aylarında turistlərin daha çox olmasının şahidi ola bilərik. İki rayonda turizmin inkişafına qoyulmuş investisiya öz bəhrəsini vermişdir. Bu otellərdə SPA, sağlamlıq mərkəzləri, konfrans zalları fəaliyyət göstərir. Həmçinin otellərdə tədbir zalları mövcuddur ki, rayonlarda təşkil edilmiş dövlət səviyyəli tədbirlərdə buradan istifadə edilir. Həmçinin rayonlara dövlət tədbirləri zamanı gəlmiş qonaqların yerləşdirilməsi bu otellərdə baş tutur. Qeyd etmək lazımdır ki, xüsusilə Qəbələ rayonunda Qafqaz otellər şəbəkəsinə aid otellər fəaliyyət göstərir.

Qafqaz Resort, Qafqaz Riverside, Qafqaz Sport, Qafqaz Karvansaray, Qafqaz Yengicə Termal Hotel və SPA, Qafqaz Yeddi Gözəl, Qafqaz Qəbələ City. Kimi otellər bu ərazidə yerləşir. Bu otellərdə yüksək səviyyəli xidmət göstərilir. Otellərin genişliyi, xidmət keyfiyyətinin yüksək olması il ərzində turistlərin gəlməsinə istiqamət verir.

**Şəki-Zaqatala iqtisadi rayonu üzrə gəlir.**

**Cədvəl 2.2.**




[Azərbaycan Dövlət Statistika Komitəsi. 28]

Qeyd etməl lazımdır ki, Qəbələdə yerləşən bu otellərdə xüsusi nəqliyyat vasitələri mövcud deyildir. Mövcud nəqliyyat vasitələri ilə yalnız müəsisə ərazisində gəzinti mümkündür. Bir sıra otellərdə isə kanad xəttinə olan çıxış vasitəsilə ərazidə yerləşən turizm müəsisələri və restoranlara səyahət etmək mümkündür.

Küngüt Otel & Resort, Macara Sheki City Hotel, Şəki Park Otel kimi otellər Şəki şəhərində yerləşən beynəlxalq turizm standartlarına cavab verən turizm müəsisələri hesab olunur. Həmçinin qeyd etməliyik ki, otellərdə Şəkinin tarixi ilə müasirliyin sintezi mövcuddur. Otellər Qəbələ şəhərində yerləşmiş otellər kimi xüsusi tədbirlər zamanı qonaqların gecələməsində mühüm xidmətlər göstərir. Adları sadalanan otellərdə xidmət keyfiyyətinin yüksəkliyi, işçilərin sahə üzrə bilik səviyyəsinin yetərli olması qonaqların qarşılanması, onların yerləşdirilməsində xüsusi xidmət göstərir.

Qeyd edilən otel xidmətləri ilə yanaşı kəndlərdə mövcud olan qonaq evləri otellərin göstərmiş keyfiyyətləri tam şəkildə əhatə etmir. Bu bir çox hallarda turistlərin narazıçılığına səbəb olur. Xüsusilə qeyd etmək lazımdır ki, turistlər səyahət etdikləri yerdə yalnız gülər üz görməklə kifayətlənmir. Onlar həmçinin xüsusi və sürətli xidmət keyfiyyəti gözləyirlər.

# III FƏSİL: ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

## 3.1. İqtisadi rayonda turizmin inkişafı üçün dövlət siyasəti və strategiyalar

Azərbaycanda turizm sektoru inkişaf etməkdə olan iqtisadiyyatın sahəsidir. Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişafı istiqamətində aparılan dövlət siyasəti və strategiyası regionda turizmin inkişafının sürətllənməsinə istiqamət verir. Regionda turizmin inkişafına dövlət nəzarəti regionun turizm sektorlarının inkişafına, yeni turizm fəaliyyəti göstərən obyektlərin çoxalmasına, həmçinin yolların təmirinə kömək edir. Turizm sektorunun inkişafında mühüm əhəmiyyət daşıyan Şəki və Zaqatala iqtisadi regionuna daxil olan rayonların hər birində strateji əhəmiyyət daşıyan turizm müəssisələri fəaliyyət göstərir ki, bu müəssisələr turizmin bölgədəki inkişafının sürətlənməsində vasitəçilərdir. Ölkəmizdə əsas iqtisadi gəlir sahəsi olan tükənən sərvətlər bir neçə ildən sonrakı təxmini hesablamalarla bitməsi ehtimal edildiyindən yeni sənaye sahələrinin inkişafına təkan verilməsi vacib amildir. Müxtəlif sənaye sahələri daxilində turizmin inkişaf etməkdə olması, gələcəkdə iqtisadi gəlirin əsas hisəsinin buradan alınması ehtimalı sahənin inkişafını daha da sürətləndirir.

Şəki-Zaqatala iqtisadi regionu ölkənin turizm balansının artırılmasında mühüm mövqe tutan iqtisadi regionumuzdur. Turizmin regionda inkişaf etdirilməsində dövlət dəstəyinin verilməsi, buraya investisiya qoyulması, turizm işçilərinin bilik səviyyəsinin yüksəldilməsi kimi bir sıra tədbirlər həyata keçirilir.

Regionda turizmin inkişafı üçün aparılan dövlət siyasəti turizmin ölkədə və regionda iqtisadi gəlirin əsas mənbələrindən olmasına istiqamət verməkdir.

Ölkəmizdə turizm sisteminə dəstək göstərilməsi ilə 2022–2026-cı illər ərzində turizm sektorunun inkişaf etdirilməsi istiqamətində dövlət strategiyası hazırlanmışdır. Dövlət proqramının əsas məzmunu isə turizmin sahələrinin inkişaf etdirməkdir. Turizm sektorunum üstünlük tərəflərində biri bu sahənin qollarının çox olmasıdır. Bu sahədə hər bir sahənin insanlarını görmək mümkündür.

2022-2026-ci illər üçün nəzərdə tutulmuş dövlət strategiyasının

hazırlanmasındakı məqsəd, qarşısına qoyulmuş vəzifələrə nəzər salaq:

Turizm haqqında hazırlanmış dövlət trategiyasının əsas məqsədi

1. Azərbaycanın turizm sahəsinin inkişafını sürətləndirmək;
2. Fasiləsiz, inklüziv turizmin inkişafıetdirilməsi;
3. Turizm sektoru işçi kapitalının inkişafı;
4. Turizm sahəsində müasir texoloji vasitələrdən istifadə və inkifetdirmə;
5. Dövlət-özəl turizm müəssisə və təşkilatlarının əməkdaşlığının gücləndirilməsi.

Strategiyanın yaradılmasındakı əsas məqsəd ölkəmizdə turizmin mümkün olan bütün sahələrinin inkişafının sürətləndirilməsi, sahələrin inkişafında tətbiq olunacaq tədbirlərin həyata keçirilmə istiqamətinin təyin edilməsidir. Startegiyanın məzmununda dağ turizmi, ekoloji turizm və rauonlarda yerləşən kəndlərdə turizmin inkişafına dəstək vermək və sürətləndirməkdir.

Turizmin inkişafını yalnız mövsümlük olmadan il boyu əhatə olunmasına istiqamətlənmək. Turizmin ölkəmizdə inkişafında yüksək potensial imkanın olması turzmin demək olar ki bütün sahələrinin inkişafına istiqamət verir. Strategiyanın hazırlanması və məqsədlərinin həyata keçirilməsində əsas məqsəd ölkənin gələcəkdə iqtisadi irəliləyişinin bu sahə üzrə təmin edilməsinə istqamətlənmişdir. Tükənən sərvətlərin tükənmə ehtimalının nəzərə alınması turizmin inkişafına istiqamət verən əsas və tək səbəb hesab edilməlidir.

## 3.2. Region turizminin beynəlxalq çərçivədə inkişaf xüsusiyyətləri

Şəki- Zaqatala iqtisadi regionun zəngin təbiəti, sərvətləri və tarixi qədimliyi ilə ön planda olan infrastrukturdur. Şəki-Zaqatala iqtisadi regionunda beynəlxalq arenada turizmin inkişafını sürətləndirmək üçün bir sıra əməkdaşlıqlar qurula bilər ki, bu da regionun inkişafında mühüm stratejik addım hesab edilə bilər. İstər təbii-coğrafi amillər, istərsə mədəni və tarixi amillərin turizmin inkişafında yaratmış olduğu inkişaf şəraiti beynəlxalq arena da da inkişafın sürətlənməsinə yardımçı ola biləcək potensiala sahibdir. Beynəlxalq cərçivədə turizmin inkişafını təmin edilməsində bir sıra əməkdaşlıq əlaqələri qurula bilər.

1) UNESCO ilə əməkdaşlıq qurulması- iqtisadi regiona daxil edilmiş Şəki şəhərinin təşkilata daxil edilməsi bu şəhərin trizm inkişafının sürətlənməsinə yardımçı olur. Lakin yalnız Şəki şəhərinin bu sistemə daxil edilməsi hələdə turizmin regionda tam inkişafına dəstək verəcək beynəlxalq əlaqənin qurulması deyil. Regiona daxil edilmiş şəhərlərin hər birinin əməkədaşlıq qurması ilə əlaqənin genişləndirilməsi və regionun dünya turizminin diqqət mərkəzi olmasında yardımçı ola bilər. UNESCO ilə əməkdaşlıq qurulması nəticəsində regionun tarixi irsi, mədəniyyəti və adət-ənnənələri geniş şəkildə təbliğ edilə bilər.
2) Turizm obyektlərinin beynəlxalq turizm standartlarına uyğunlaşdırılması – regionda mövcud olan otellərin infrastrukturunun müasir standartlara uyğun şəkildə təşkil edilməsi, otellərin konfort səviyyəsinin yaxşılaşdırılması turistləri seçimlərinin düzgün etmələrinə istiqamət verir. Qeyd etməliyik ki, turizm sektorunda daha çox xarici turistləri bu cür detallara diqqət yetirdiyi bilinir.

Turizm müəsisələrinə getmək üçün yol və nəqliyyat vasitələrinin təşkil olunması vacib amildir. Hər bir turizm obyektinin sistemləşdirilmiş nəqliyyat şəbəkəsinin olması çox vacibdir. Turizm yollarının standartlara uyğun şəkildə təmir edilməsi, yararsız yolların əsaslı təmiri işin səmərəliliyinin artmasına istiqamət verir. Qeyd edə bilərik ki, yolların təmirsiz vəziyyəti insanların vaxtlarının çox hissəsini yollara sərf etməsinə səbəb olur.

Turizm xidməti göstərən otellərin hər birində bələdçi xidmətinin təşkil olunması mühüm amildir. Turistlərin istiqamətləndirilməsi üçün utğun kadrların seçilməsi vacibdir. Bu səbəbdən əsasən iqtisadi regionda çalışan işçilərin dil səviyyəsinin yüksəldilməsi üçün müxtəlif təlimlərə cəlb edilməsi çox vacibdir.

3) Turizmin inkişafında xarici turizm şirkətləri ilə əməkdaşlıq yaradılması və layihələrin təşkili – Azərbaycanın əsasən sərhəd olduğu ölkələrlə turizm əlaqələrinin qurulması turizmin inkişafına daha alternativ vasitə hesab edilə bilər. Qonsu ölkələrlə marşurt xətlərinin yaradılması quru sərhədləri və hava yolları vasitəsilə regiona səyahət edə bilərlər. Qeyd edə bilərik ki regionun daxilində yerləşən Qəbələ şəhərində hava limanın fəaliyyət göstərməsi ilə turistlər birbaşa regiona səyahət edə bilərlər.

Əməkdaşlıq çərçivəsində xarici turizm şirkətləri ilə birgə layihələr hazırlanaraq müxtəlif tur paketləri təqdim edilə bilər. Bu turlara insanlar müraciət edərək regiona səfərlərini sistemli şəkildə təşkil edə və təhlükəsizliyini təmin edə bilərlər. Regionda beynəlxalq standartlara cavab verən bir çox otellərin fəaliyyət göstərməsi burada turistlərin səmərəli istirahətlərinin təşkilinə, ekskursiyalara çıxmasında yardımçı ola bilər.

**2025-ci il Şəki-Zaqtala iqtisadi regionundayerləşən otel və mehmanxanalara yerləşdirilmiş yerli və əcnəbi vətəndaşlar.**

***Cədvəl 3.1.***

| Şəhərlər | Azərbaycanlı | Əcnəbi |
|---|---|---|
| **Balakən** | 133 | 6 |
| **Qax** | 3122 | 409 |
| **Qəbələ** | 9031 | 8791 |
| **Oğuz** | 40 | |
| **Şəki** | 1861 | 599 |
| **Zaqatala** | 2004 | 20 |

[Azərbaycan Dövlət Statistika Komitəsi. 34]

Cədvələ əsasən gələn turistlərin yerli və əcnəbi olaraq qarşılıqlı təhlil vəziyyətinə baxılmışdır. Təhlil əsasında yerli turistlərin əcnəbi vətəndaşların sayından kəskin şəkildə yüksək olması görünür. Bəzi regionlarda isə demək olar ki, yox səviyyəsindədir. regionun turizm potensialının inkişaf etdirilməsi və dünyaya tanıdılmasında beynəlxalq əlaqələrin qurulması, yüksək səviyyəli internet portallarının olması, turizm şirkətləri ilə əlaqəli şəkildə çalışılması çox vacibdir. Tuistlərin cəlb olunması regionun turizm potensialının yüksəldilməsində vacib məqamdır. Turizmin inkişafında özəl və dövlət qurumlarının səyləri çox vacib məqamdır.

Qəbələdə hər il təşkil edilən beynəlxalq musiqi festivalına gələn əcnəbi vətəndaşlar həm festivalda iştirak etmiş olur, həm də şəhərin gözəl təbiəti, tarixi yerləri ilə tanış olurlar. Şəhərin yüksək turizm potensialına sahib olması qonaqların uzunmüddət burada qalmasına səbəb olur.

Şəki –Zaqatala iqtisadi regionunda tarixilik və müasirliyin sintezi regiona olan marağı biraz daha artırır.

Şəki-Zaqatala iqtisadi regionun turizm potensialı inkişaf etməkdə olsa da hələ də bir çox çatışmayan tərəflər özünü büruzə verir. Çatışmayan tərəflərin əsasında isə işçilərin turizm potensialının zəif olmasıdır. Bunun əsas səbəbi isə ölkəmizdə turizmin yeni sənaye sahəsi kimi inkişaf etməkdə olması və bu sahə üzrə mütəxəssislərin yetişdirilməsi prosesinə yeni başlanılmasıdır. Regionun turizm sahəsinin mövsümi xarakter daşıması da bua nümunədir. Belə ki, mövsümi olaraq turizmin inkişaf etməsi sektorda çalışan işçilərin işsiz qalmaslı ilə nəticələnir. İşçilərin müddətli müqavilə əsasında çalışması onların tez-tez işsiz qalması ilə nəticələnir. Həmçinin mövsümü işçi dəyişikliyi müəssisələrin də vəziyyətinin çətinləşməsinə səbəb olur. Bu problemin mövcudluğu regionun turizm potensialına mənfi təsir edir.

İqtisadi regionun dünyada tanıdılmasında ilk öncə daxildəki problemlərin həlli yolunda addımlar atılmalıdır. Turizmin regionda brend olması üçün investisiyanın qoyulması əsas hesab olunmalıdır. İnvestisiyanın yalnız otel tikintisi, yolların təmiri, nəqliyyat sisteminin yaradılmasında qoyulmamalıdır. Burada turizm potensialının idarə olunmsına xidmət göstərən işçilərin bilik səviyyəsinin yüksəldilməsi vacib hesab olunmalıdır.

### 3.3. Regionun iqtisadi inkişafının təmin olunması və təkliflər

Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişaf etdirilməsində regionun coğrafi mövqeyi, təbii ehtiyatları, təbiətinin zənginliyi, kənd təsərrüfatı potensialının yüksək olması mühüm rol oynayır. Regionda bu amillərin nəzərə alınması ilə turizmin inkişaf etdirilnməsi daha asand və rahat şəkildə baş tuta bilər. Turizmin inkişaf etdirilməsində bir sıra faktorlan ön plana gəlməlidir.

1. Reginda kənd təsərrüfatının müasir tələblərə uyğunlaşdırılması:
   - ✓ Əkinçiliyin genişləndirilməsində suvarma sistemlərinin yeniləşdirilməsisi və əhatə dairəsinin genişləndirilməsi.
   - ✓ Kənd təsərrüfatı texnikalarınının sayının artırılması və yenisi ilə əvəz edilməsisi üçün subsidiyaların yüksəldilməsi.

- ✓ Ekoloji çirklənməyə qarşı və ixrac ediləcək məhsulların istehsalı.

2. Tarixi abidələrin, mədəni irsin qorunması:
   - ✓ Regionda mövcud olan tarixi abidələrin əsaslı təmiri, turizm mərkəzlərinə nəqliyyat xəttinin yaradılması
   - ✓ Ekologiyanın təmizlənməsinə xidmət edən otellərin, qonaq evlərinin tikilməsi
   - ✓ Tarixi irsin tanıdılmasına xidmət göstərəcək bələdçilərin işə alınması.
   - ✓ Regionun əsas məhsullarının bredndə çevirlməsi üçün çalışmaq.

3. Regionda sahibkarların sayının artırılması onların yaratmış olduqları sənaye sahələrinə təkanlar vermək:
   - ✓ Sahibkarlara inkişaflarının təmin edilməsində veriləcək vergilərdə güzəştlər edilməsi
   - ✓ İnkubasiya mərkəzləri yaradılmalıdır.

4. Sənaye sahələrinin genişləndirilməsi.
   - ✓ Logistika mərkəzlərinin yaradılması, dəmir yolu xətlərinin inkişaf etdirilməsi
   - ✓ Sənaye parklarının salınması, inkişafına dəstək vermək

5. Əmək bazarında təhsil sisteminin əsas amilə çevrilməsi:
   - ✓ Turizm inkişafında əsas məqam olan kadr çatışmazlığı probleminin qarşısının alınmasında peşə məktəblərinin inkişafı, yeni peşə məktəblərinin yaradılması, ehtiyac olan, tələbatın artıq olduğu ixtisaslar üzrə kadr hazırlığını həyata keçirmək.
   - ✓ Yeni nəslin başqa ərazilərə üz tutmasının qarşısını almaq üçün onla iş imkanları, təlimlərin verilməsi kimi vasitələrlə yardımlar etmək.

6. Ekoloji çirklənməyə qarşı tədbirlərin həyata keçirilməsi:
   - ✓ Su elektrik stansiyalarının yaradılması və günəş panellərinin yerləşdirilməsi.
   - ✓ Geniş meşəliklərin qorunması və ekoloji təmizliyin yaradılması, tullantıların qarşısının alınması

Qeyd olunmuş şərtləri nəzərə alaraq turizmin iqtisadi inkişafının təmin olunmasına, bölgədə yerləşən xüsusi və dövlət sektorlarının turizm gəlirlərinin əldə edilməsinə yönəldilmişdir. Turizm sahəsinin ölkəmizdə inkişaf potensialı yüksək olduğundan bu

sahəyə qoyulmuş iqtisadi səmərəliliyə yönəldilmiş investisiyalar mühüm əhəmiyyət kəsb edir. Sahə üzrə maadi gəlirin əldə edilməsi üçün ilk öncə sahədə əsaslı işlər aparılmalıdır. Əsaslı şəkildə aparılmış işlərin bəhrəsini görmək isə uzun müddət baş tutur. Qısa müddət li təmir və abadlıq işləri insanları qorxutmamalıdır.

Şəki-Zaqatala iqtisadi regionunda turizm fəaliyyəti göstərən otel və mehmanxanalın gəlirinin əldə olunmasında həm yerli, həm də əcnəbi turistlərin səyahətləri yer tutur. Turistlərin gecələməsi, otel xidmətlərindən istifadə etməsi nəticəsində burada müxtəlif istiqamətlərdə gəlirlər əldə edilir. Qeyd olunduğu kimi iqtisadi regionun turizm sektorunun mövsümi xarakter daşıması gəlirin aylar üzrə müxtəlif şəkillərdə əldə edilməsinə səbəb olur.

**2025-ci il yanvar-mart aylarında iqtisadi regionda mehmanxana və otellərdən əldə edilmiş gəlir.**

***Cədvəl 3.2.***

| **Şəhərlər** | **Əldə Olunmuş Gəlir** |
|---|---|
| **Balakən** | 29,5 |
| **Qax** | 316,5 |
| **Qəbələ** | 8089,6 |
| **Oğuz** | 1,8 |
| **Şəki** | 367,8 |
| **Zaqatala** | 134,5 |

**[Azərbaycan Dövlət Statistika komitəsi, 34]**

Cədvəl əsasında yanvar və fevral aylarında Şəki-Zaqatala iqtisadi regionuna daxil olan rayonların ümumi gəlirinin statistikasında nəzərə çarpan əsas məqam regiona daxil olan rayonların gəlirlərinin müxtəlif formalarda təzahür etməsidir. Gəlirin əldə olunmasında əsas məqam kimi infrastruktur çox önəmlidir. Regionun turizm potensialının inkişafı üçün bir çox tədbirlər həyata keçirilməlidir. verilmiş

cədvəldən nəticə olaraq bir məqam gözə çarpır ki, insanların tələbatları fərqli şəkildə təzahür edir.

## NƏTİCƏ

Şəki-Zaqatala iqtisadi regionu turizmin inkişafında əsas əhəmiyyət daşıyan iqtisadi regionlarımızdandır. İqtisadi regionun dövlət nəzarətində olması turizmin inkişafının sürətlənməsinə istiqmət verir. Əlverişli infrastrukturu, relyef xüsusiyyətləri, tarixi abidələri, memarlıq nümunələri regionun turizm potensialının daha çox inkişaf etdirilməsinə kömək edir. İqtisadi regionun gözəl güşələrinin dünyaya tanıdılması istiqamətində kütləvi turlar təşkil edilir.

Azərbaycan Turizm Bələdçiləri Assosasiyasının tur bələdçilərinin yardımı ilə turların təşkil olunması daha əlverişlidir. Turizmin inkişafı istiqamətində dövlətin aparmış olduğu siyasət və strategiya ərazinin turizm istiqamətində inkişafına kömək edir.

Şəki-Zaqatala iqtisadi regionu turizm inkişaf istiqamətində aparılan dövlət siyasəti ilə yanaşı yerli əhalinin də turizm sahəsində öz məhsullarını satmalarında yardımçı olur. Belə ki, yerli əhali yaşayışlarının maaddi təminatını qonaqlara satmış olduqları məhsulları ilə təmin edirlər. Turizmin mövcudluğu əhalinin yaşam səviyyəsinin yaxşılaşdırılmasına kömək edir. Regionda turizm xidməti göstərən yerli əhali şəxsi evlərini turistlərini xidmətinə verirlər.

Turizmin inkişafında nəqliyyat yollarının təmiri vəziyyətinin yüksək səviyyədə olması çox vacibdir. İqtisadi regionun ərazisində nəqliyyat yollarının mövcud olmasına baxmayaraq istifadə nəticəsində aşınmalar və çatların yaranması ilə müşahidə edilir. Ərazinin dağlıq və dağətəyi zonada yerləşməsi yolların tez-tez sıradan çıxmasına səbəb olur.

İqtisadi regionun ərazisində turizmin inkişafı istiqamətində turizm nəqliyyatından istifadənin aşağı səviyyədə olması , xüsusi turizm nəqliyyatının olmaması turistlərin xüsusi maşınlar, tur avtobusları, Avtovağzal vasitəsilə rayonlar arası xətlərdən istifadə edilməklə səyahətlərini təşkil etmələrinə səbəb olur. Turizm

regionun əsas sənaye sahəsi olmaqla iqtisadi gəlirin əldə edilməsinə istiqamətlənmişdir. Bu səbəbdən nəqliyyat vasitələrindən istifadənin rahat şəkildə təşkil olunması üçün turizm nəqliyyat sisteminin qurulması lazımdır. Ekologiyanın qorunmasında, çirkli maadələrin atmosferə qarışmasının qarşısının alınmasında önəmli vasitə olan yaşıl enerji ilə çalışan nəqliyyat növlərindən kütləvi şəkildə istifadə olunması çox vacibdir.

Şəki-Zaqatala iqtisadi regionu turizmin inkişafı istiqamətində bir çox mühüm keyfiyyətlərə sahibdir. Regionda turistlərə göstərilən yüksək keyfiyyətli xidmət, müasir tələblərə uyğun otellərin mövcudluğu, restoranların çoxluğu ərazinin mühüm əhəmiyyətli mövqey daşımasına kömək edir.

Buraxılış işinin təhlili və araşdırmalar nəticəsində Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişafının yüksək potensial imkanlarına baxmayaraq bir sıra mümkün tədbirlərin həyata keçirilməsi çox önəmlidir. Tədbirlərin həyata keçirilməsi üçün vacib problemlərə baxaq:

1. Turizm nəqliyyat sisteminin yaradılması, əraziyə sistemli səyahətlərin təşkil olunması üzrə cədvəllərin yaradılması, mütəmadi olaraq nəqliyyat vasitələri ilə əraziyə səyahətlərin baş tutmasına kömək edir.
2. Ekologiyanın qorunması istiqamətində ekoloji turizmin inkişafının təmin olunmasına təkan verilməlidir. Çirklənmənin qarşısının alınmasında təbiətin qorunması istiqamətində xüsusi yazılar yerləşdirilməli, günəş enerjili nəqliyyat vasitələrindən istifadə edilməlidir. Günəş enerjisindən istifadə olunması təbiətə zərərli qazların qarışmasının qarşısını alır.
3. Şəki-Zaqatala iqtisadi regionunun dünyada tanıdılması istiqamətində marketinq xidmətlərinin təşkil edilməsi, elektron portal sistemində aktivliyin müşahidə olunması əsas məqsəd olmalıdır.
4. Regionda fəaliyyət göstərən otel, mehmanxana və restoranların rəsmi portal səhifəsinin mövcud olması, sistemli idarə olunmasına ehtiyac vardır.
5. Şəki-Zaqatala iqtisadi regionunda tarixi və mədəni irsimizin tanıdılması istiqamətində mühüm əməkdaşlıqlar yaradılmalıdır. Əməkdaşlığın qurulması istiqamətində dövlətin siyasəti və strategiyası əsas məqam olraq qeyd olunmalıdır.

6. Turizmin inkişafında səyahət edən səyahətçilərin turizm bələdçi xidmətlərindən istifadəsi vacibdir. Bu istiqamətdə Azərbaycan Turizm Bələdçilərinin rəsmi səhifəsindən istifadə edilməsinə xüsusi diqqət yetirilməlidir.
7. Regionda çalışan işçilərin təhsil səviyyəsinin yüksəldilməsində təlimlər, kurslarının təşkili onların Beynəlxalq təhsil proqramları əsasında təkmilləşdirilmələrinə yardımçı olmaq lazımdır. Bu yalnız işçinin deyil müəssisənin fəaliyyətinin müsbət istiqamətdə dəyişilməsinə yardım edəcəkdir.

Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişafı istiqamətində qarşıya qoyulmuş məqsədə çatmaq üçün atılması məqsədə uyğun hesab edilən addımlar ərazinin geniş imkanlarından insanların istifadə edə bilmələrinə, onların bu gözəl güşənin sərvətlərindən xəbərdar olmalarına kömək edəcəkdir. Regionun bir çox turizm sahəsinin inkişafı istiqamətində əlverişli mövqeydə olması buraya olan tələbatın artmasına səbəb ola bilər. Turizmin beynəlxalq çərçivədə tanıdılması istiqamətində aparılması vacib olan tədbirlər turizm sənayesinindən istifadə yönəldilmiş obyektlərin iqtisadi gəlirinin artmasına istiqamət verəcəkdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı” Azərbaycan Respublikası prezidentinin fərmanı, 29 yanvar, Bakı, 2019.

2. “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında”.

3. Azərbaycan Respublikası prezidentinin fərmanı, 24 noyabr, Bakı, 2003.

4. “Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafina dair Dövlət Proqramı”, 27 avqust 2002, Bakı.

5. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanunu, 27 dekabr, Bakı, 2021.

6. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, 1 dekabr, 1992.

7. C.A. Məmmədov, B.Ə. Bilalov “Azərbaycanda gəlmə turizm və onun inkişaf yollan”, 2004, Bakı.

8. C.A. Məmmədov, H.B. Soltanova, S.H. Rəhimov Beynəlxalq, “Turizmin coğrafiyası”, 2002, Bakı.

9. E. Ə. Əliyev, Beynəlxalq Nəqliyyat Daşimalarinin Konvension Təsbiti, “Hüquq ədəbiyyatı” nəşriyyatı, Bakı – 2002

10. Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev “Ekoloji turizm”, Bakı, 2011, 276

11. Ə.Cabbarov, “Turizmin İqtisadi Əsasları”, Bakı-2015

12.Ə. Cabbarov. Turizm Marşrutlari Və Ekskursiya İşinin Təşkili. Bakı-2017

13. B.Ə. Bilalov “Turizm fəaliyyətinin tənzimlənməsi”, 2006,Bakı. 276

14. “İqtisadi Təhlükəsizlik Mövcud Vəziyyət Və Perspektivlər Beynəlxalq Elmi Konfrans Materiallari”, Sumqayıt, 2018.

15. İ. Hüseynov, N. Əfəndiyeva “Turizmin Əsasları”, Bakı, 2007.

16. M. Məmmədov, “Nəqliyyatın dinamik inkişaf strategiyası”, Çaşıoğlu-2015

17. M. Abadov, “Azərbaycan Turizmi və Onun İnkişaf Problemləri”, BAKI-2014

18. S.N. Rəhimov Turizm-ekskursiya işinin təşkili, 2004, Bakı.
19. S.Səfərov, R.Mahmudov, "Müasir iqlim dəyişmələri və Azərbaycan", Bakı-2011

20. T. Yadigarov, "Azərbaycan İqtisadiyyatinda Dəniz Nəqliyyati: Problemlər Və Perspektivlər", Bak-2018

21. Y.Yusifov, "Nəqliyyat və Rabitə Statistikasi", BAKI – 201

22. Y.A.Köçərli. "Turizmin əsasları" fənn üzrə mühazirələr kursu və proqram. Bakı 2017.

23. Z. Məmmədov, XXI Əsr: İqtisadi İnkişafin Nəqliyyat Faktoru, Bakı – 2002

24. **https://mincom.gov.az/az/media/xeberler/beynelxalq-aviasiya-ve-iqlim-deyisikliyi-movzusunda-panel-muzakiresi-kecirilib**

25. **http://e-qanun.az/framework/3515**

26. https://justice.gov.az/documents/AZ/Konstitusiya.pdf

27. **https://www.stat.gov.az/source/touri sm/az/005_5.xls**

**28**. https://www.stat.gov.az/source/tourism/az/005_7.xls

29. https://www.stat.gov.az/source/tourism/az/005_11.xls

30. https://az.wikipedia.org/wiki/%C5%9E%C9%99ki-Zaqatala_iqtisadi_rayonu

31. https://tourism.gov.az/

32. https://e-qanun.az/framework/54193

33. https://e-qanun.az/framework/51385

34. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/tourism_2024.zip

35.https://www.stat.gov.az/source/tourism/az/bul/G%C9%99lm%C9%99_turizm_2025_yanvar-mart.zip

36.https://www.stat.gov.az/source/tourism/az/bul/Daxili_turizm_2024.zip

I. Ümumi Məlumat

**Qafqaz Riverside Resort Hotel**

**Oteliniz hansı regionda yerləşir?**

a) Quba-Xaçmaz
b) Bakı
c) Şəki-Zaqatala

**Oteliniz hansı kateqoriyaya aiddir?**

a) 5 ulduz
b) 4 ulduz
c) 3 ulduz
d) Ulduz kateqoriyasına daxil deyil

**Otelinizdə neçə otaq var?**

a) 51-100
b) 100-150
c) 150-200
d) 200-dən çox

**Hansı ay(lar)da doluluq səviyyəsi daha yüksək olur? (bir neçə variant seçilə bilər)**

a) Yanvar-Mart
b) Aprel-İyun
c) İyul-Sentyabr
d) İl boyu

**Otelinizə turist axının əsas səbəbi? (bir neçə variant seçilə bilər)**

a) Mövsümi turizm (yay/qış turizmi)
b) Azərbaycan vətəndaşlarının sifarişləri
c) Əcnəbi turistlərdən gələn sifarişlər
d) Regionda keçirilən dövlət tədbirləri və festivallar

**Otelinizin əsas müştəri qrupu kimlərdir?**

a) Daxili turistlər(Azərbaycandan gələnlər)
b) Xarici turistlər
c) Biznes səfərləri edən şəxslər
d) Digər: ___

**Xarici turistlər əsasən hansı ölkələrdən gəlir?**

a) Rusiya
b) Türkiyə
c) Hindistan
d) Pakistan
e) Körfəz ölkələri (BƏƏ, Səudiyyə Ərəbistanı və s.)
f) Avropa ölkələri
g) Digər: ___

**Müştərilər rezervasiyanı əsasən hansı üsulla edirlər?**

a) **Onlayn platformalar (Booking.com, Expedia, Airbnb)**
b) **Turizm agentlikləri vasitəsilə**
c) **Birbaşa otelə zəng və ya e-poçtla**
d) **Yerində rezervasiya**

**Otelinizdə qiymətlər hansı faktorlar əsasında müəyyən edilir?**

a) **Mövsüm və tələbat**
b) **Rəqib otellərin qiymətləri**
c) **Müştəri kateqoriyası (biznes/leisure)**
d) **Digər: ___**

**Şəki-Zaqatala iqtisadi regionunda turizmin inkişafına təkan verən əsas amillər.**